


# Zərifə Əliyeva

## Ziyarətə çevrilmiş ünvanlar

*ZƏRİFƏ ƏLİYEVA*

# ZİYARƏTƏ ÇEVRİLMİŞ ÜNVANLAR

**I HİSSƏ**

**BAKI - 2013**

**Məsləhətçi:**
***Tamilla Şıxməmmədova***

**Müəllif və tərtibatçı:**
***Nüşabə Şamilqızı***
***Nataliya Şneyder***

**Redaktor:**
***Ləman Əliyeva***

***"Ziyarətə çevrilmiş ünvanlar"***

470200000
N – 098 – 2013

© A.Nüşabə, 2013
© «Elm və təhsil», 2013

*"...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.*

*Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür...*

*... Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda, qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm".*

**Heydər Əliyev**
**28.04.1995**



"İnsan var üzündən, insan var izindən tanınar" - deyib atalar. Üzdən tanınanların ömrü yaşadıqları günlərin sayı qədər olur və sonradan unudulur, zaman ötdükcə hətta yaxınlarının da xatirindən silinirlər. Onları xatırlamağa, yad etməyə zərurət belə yaranmır.

Lakin izindən tanınanlar əməllərilə insanların, zaman-zaman formalaşan nəsillərin qəlbində hər vaxt ucalır, əbədi yaşamaq haqqı qazanır. Belə şəxsiyyətlərin qoyduqları iz neçə-neçə insanın həyat yoluna çevrilir və bu yol onlara hər zaman uğur gətirir. Bu yolu tutanlar əzmkar, mətin, mübariz olur, özündən daha çox başqalarını düşünür, haqq-ədaləti, düzgünlüyü hər şeydən üstün hesab edirlər.

Belə şəxsiyyətlərdən biri də bütün ömrünü xalqının, millətinin yolunda şam kimi əridən, tarixdə və insanların



qəlbində dünya durduqca yaşamaq haqqı qazanan, sadəliyi ilə bəşəriyyəti, ucalığı ilə göyləri fəth edən Zərifə Əziz qızı Əliyevadır. Azərbaycan xalqının müasir tarixində və insanların qəlbində xüsusi yeri olan Zərifə xanım Əliyeva haqqında danışmaq şərəfli olduğu qədər də məsuliyyətlidir. Sözsüz ki, hər bir azərbaycanlı görkəmli ictimai xadim, akademik Zərifə Əliyeva haqqında danışmaqdan, onun keçdiyi mənalı, şərəfli ömür yoluna nəzər salmaqdan və ümumiyyətlə, o böyük insanın xalq qarşısındakı xidmətlərindən qürur duyur. Lakin bütün insani keyfiyyətləri özündə cəmləşdirən Zərifə xanımı olduğu kimi vəsf etməyə bəlkə sözün də qüdrəti yetərli deyildir.

Əsrlərin, nəsillərin qan yaddaşında həmişəlik yaşamaq haqqı qazanan insanları dəyərləndirəndə bir neçə meyar əsas götürülür. Zərifə xanım bu meyarlara cavab verdiyi üçün ona xalqımız tərəfindən birmənalı şəkildə yüksək qiymət verilir. Neçə-neçə insanın həyatda qazandığı uğurlarda onun fəaliyyətinin böyük rolu olmuşdur.

Qədim yunan filosofu Platondan soruşurlar ki, nəyə görə müəllimlərinə valideynlərindən çox hörmət edirsən? O, cavabında bildirir ki, valideynlərim məni göydən yerə endirdi, müəllimlərim isə əksinə, yerdən göyə qaldırdı. Zərifə xanım bir ziyalı, müəllim, alim və ən əsası, bütün yüksək keyfiyyətlərə malik insan kimi yüzlərlə, minlərlə şəxsin formalaşmasında, ucalmasında xüsusi rol oynadı. Bir çoxlarının elmlə məşğul olmalarında, cəmiyyətdə müəyyən mənada milli duyğular yaratmalarında, insanlarla lazımi səviyyədə münasibət qurmalarında və digər məsələlərdə Zərifə Əliyevanın müstəsna xidmətləri vardır. Bunların hər biri ayrı-ayrılıqda və bütövlükdə insanları dəyərləndirmək üçün əsas götürülən meyarlara cavab verir. Bu meyarlar hansılardır?

Birinci meyar, əgər insan ictimai mənafelərini şəxsi mənafelərindən üstün tuta bilərsə, o insan çox şeyə qadirdir. Bu həm də milli maraqların hər zaman şəxsi maraqlardan üstün tutulması deməkdir və bunu bacaran insan xalqın, millətin qəlbində ucalır, əbədiləşir, həyatı, fəaliyyəti başqalarına örnək olaraq tarixin qan yaddaşında həmişəlik qalır. Zərifə xanım bu ali keyfiyyətə malik bir insan idi.

İkinci meyar, insanın öz iradəsini ifadə etmək bacarığı və

hər hansı maraqlardan asılı olmayaraq iradəsinin əksinə getməməsidir. İnsan öz düşündüyünün uğurlu olacağını bilərək onu ifadə edəndə həm səmərəli, həm də effektli olur. Kimsə hər hansı maraqlar ucbatından öz iradəsinin əksinə getməyə məcbur olursa bu, istər-istəməz nə zamansa bəlalar gətirə bilər. Bəli, Zərifə Əliyevanın böyüklüyü həm də onun iradəli, dözümlü olmasında və tutduğu yolun xalqa xeyir verəcəyini bilərək bu yoldan geri çəkilməməsində, mübarizliyində idi. Bu böyük insanın əzəmətindən, dönməzliyindən, əzmkarlığından kitabın gedişində söz açacağıq.

Üçüncü meyar, insanın təmizliyidir. Məhəmməd Peyğəmbər (s) buyurmuşdur: "Əgər insan tamahının üstündən xəncər çəkə bilirsə, belə insandan yaxşılıqdan başqa bir şey gözləmə". Əlbəttə, insan tamahkardırsa, onun hansı səviyyədə elmə, savada malik olması heç kəsə xeyir gətirməz. Zərifə Əliyevanı xalqa sevdirən amillərdən biri də onun təmənnasız insan olmasıydı. Eyni zamanda o, sovet ideologiyasının sərt qanunlarının mövcud olduğu illərdə xalqına, millətinə sədaqətlə, vicdanla, şərəflə xidmət göstərdi. O, milliyyətindən, irqindən, cinsindən, yaşından asılı olmayaraq heç kəsdən köməyini əsirgəmədi. Xalqının, vətəninin başını hər zaman uca etdi. Zərifə xanım qeyd olunan meyarlara tam cavab verən bir insan idi. Onun xüsusiyyətləri, elmi, biliyi, iradəsi, tutduğu yol, təmənnasız insan olması və s. bir-birini tamamlayırdı. Məhz buna görə o, tarixləşdi, əbədiləşdi, milyonların qəlbində yenilməz abidəsini ucaltdı. Ən möhtəşəm daşlardan hazırlanan, sərt qayalardan yonulan abidələr nə zamansa dağıdıla, məhv edilə bilər. Lakin xalqın, millətin qəlbində ucalan abidələr dünya durduqca yaşayır, əzəmətini, ucalığını qoruyub saxlayır. Necə deyərlər: "El qədrini bilənləri el yaşadır."

Dünyada elin gözündən düzgün tərəzi, xalqın iradəsindən güclü qüvvə yoxdur. Xalq hər şeyi görür və baş verənləri düzgün qiymətləndirir. Zərifə xanım Əliyevanın bu qədər sevgi, ümumxalq məhəbbəti qazanması sözsüz ki, xidmətlərinin müqabilində xalqının ona verdiyi qiymətdir.

Hər kəsə xatirəyə çevrilmək şərəfi nəsib olmur. Yalnız müdrikliyi, saflığı, səmimiliyi, vətəndaşlıq mövqeyi, şəxsi mənafeyindən daha çox başqalarını düşünmək bacarığı ilə seçilənlər, şübhəsiz ki, millətin qəlbində əbədi yaşamağa



layiqdir. Saysız-hesabsız insanlar bu dünyanın qonağı olub və bir gün həyatın bizim istəyimizdən asılı olmayan amansız qanunlarının nəticəsi olaraq yaşadıqları dünya ilə vidalaşıblar. Belə qanunlar qarşısında aciz qalan insanlar yalnız nəcib əməlləri, yaratdıqları özünəməxsus dünyaları ilə əbədi bir iz qoya bilirlər. Zaman keçdikcə bu izlər bizi keçmişlə birləşdirir, o dövrün gerçəkliklərini, həqiqətlərini öyrənərək gələcəyə aparmağımız üçün qarşımızda böyük, işıqlı yola çevrilir. Dahi şəxsiyyətlərin həyat yolu ilə tanış olarkən zamanın rəsmini yaratmağa nail oluruq. Azərbaycan tarixinin məlum olan dövründən neçə-neçə şəxsiyyətin həyat salnaməsi bizə əfsanəvi yüzilliklərdən söz açır. İllər ötəcək, əsrlər tamamlanacaq, indi yaşadığımız dövr çox-çox sonralar yetişəcək nəsillər üçün ibrətamiz sayılacaq. Həmin səhifələrdə kimlərin adları vərəqlənsə, o ömür yolları təkrar-təkrar öyrəniləcək.



Bəli, Azərbaycan tarixi şərəfli səhifələrlə zəngindir və bu amil xalqını, millətini düşünərək böyük işlər görən insanların adlarıyla bağlıdır. Belə insanlar haqqında tarixin bundan sonrakı mərhələlərində də daim danışılacaq, söz açılacaq. Onların keçirdiyi ömür yolu, həyat və fəaliyyətləri sözün hər bir mənasında, örnək olacaq. Haqqında danışacağımız Zərifə xanım Əliyeva da belə insanlardandır və onun adını çəkərkən, keçdiyi şərəfli, mənalı, keşməkeşli ömür yolundan, gördüyü işlərdən söz açarkən qürur, iftixar hissi keçirməyimiz təsadüfi deyil. Təəssüf hissi doğuran məqam ondan ibarətdir ki, o, bu gün bizim aramızda yoxdur. Amma sevinirik ki, Zərifə xanım aramızdan qəlbimizə köçüb və nə qədər ki, dünya var, o, yaşayacaq, keçdiyi ömür yolunun hər addımı zaman-zaman araşdırılacaq, bundan ən çox qazanan isə Azərbaycan xalqı olacaq.



Xatırladaq ki, Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 1923-cü ilin yazı, dövrünün görkəmli dövlət və ictimai-siyasi xadimi, elm fədaisi, böyük şəxsiyyət Əziz Əliyevin ailəsində onilliklər sonra ailənin adını daha da yüksəklərə qaldıracaq, vətənə layiqli övlad olacaq, xalqına xidməti hər şeydən üstün biləcək parlaq bir simanın gəlişi ilə yaddaqalan olmuşdur. Zərifə xanımın atası Əziz Məmmədkərim oğlu Əliyev və anası Leyla Cabbar qızı Abbasova əzəli torpağımız olan İrəvan mahalında anadan olmuşlar. Ermənilərin azərbaycanlılara qarşı düşünülmüş şəkildə həyata keçirdikləri soyqırımı siyasəti Əziz Əliyevi 1918-ci ildə Sankt-Peterburqdakı təhsilini yarımçıq qoyub İrəvanda təqiblərə məruz qalan ailəsini Naxçıvana - Şahtaxtı kəndinə köçürməyə məcbur edir. 1923-cü ilin may ayında Əziz Əliyev Bakıya köçmək qərarına gəlir. Bu da səbəbsiz deyildi. Ağır bir dövrdə İrəvan gimnaziyasını qızıl medalla bitirən, təhsildə böyük uğurlar əldə edən Əziz Əliyev yarımçıq qalmış təhsilini hökmən bitirməli idi. O, Bakıda universitetin tibb fakültəsini, sonra isə aspiranturanı bitirərək elmlər namizədi olur. Qısa zaman ərzində o, doktorluq dissertasiyasını da müdafiə edir. 1929-cu ildə 32 yaşlı Əziz Əliyev Azərbaycan Səhiyyə Komissarlığında səhiyyə komissarının müavini vəzifəsində çalışır. Tibb sahəsində çalışmasına baxmayaraq bir



çox sahələrdə xidmət göstərən ziyalılar Əziz Əliyev ailəsinin yaxın dostuna çevrilmişdilər. Azərbaycan xalqı qarşısında müəyyən xidmətləri olan hər kəsə Əziz Əliyev tərəfindən xüsusi rəğbət bəslənilirdi.

Belə zəngin mənəviyyata malik ziyalı ailəsində böyüyən, formalaşan Zərifə xanımın xalq üçün dəyərli bir övlad kimi yetişəcəyi, vətəninə sədaqətlə xidmət edəcəyi şübhəsiz idi.

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə institutu əla qiymətlərlə bitirmişdir.

Məhz həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Ona qarşı təsirli müalicə üsulları isə yox idi. Bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və həyata keçirilməsində fəal iştirak edirdi. O, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında dəyərli söhbətlər aparır, məsləhətlər verirdi.

Zərifə xanım Əliyeva yaxşı bilirdi ki, ağır xəstəliklə mübarizədə bunlar kifayət deyil. Respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin effektli müalicə üsullarını və profilaktika tədbirlərini işləyib hazırlamaq tələb olunurdu. Zərifə Əliyeva görmə qabiliyyətində problem olan insanlara lazımi xidmət göstərilməsi üçün bütün mümkün vasitələrdən istifadə edilməsini zəruri sayırdı və bu istiqamətdə ciddi işlər görürdü. Azərbaycanda geniş yayılmış bu xəstəliyin qarşısının alınması üçün konkret işlər görmək Zərifə xanımın qarşısında duran ən birinci məsələ idi. Bu xəstəliyin mövcud olması onun rahatlığını pozmuşdu.

Ona görə də Zərifə xanım Moskva şəhərinə gedir və

Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. O, bu kursu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra respublikamıza qayıdır, 1949-cu ildən etibarən Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır. 1950-ci ildə isə aspiranturaya daxil olur, həkimlik fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da davam etdirir. Müxtəlif göz xəstəliklərinin müalicə və prafilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım elmi fəaliyyətinin ilk mərhələsini traxoma infeksion xəstəliyinin müalicəsinə həsr edir. Beləliklə, Zərifə Əliyevanın ilk elmi araşdırmalarının nəticəsi effektli olur və getdikcə çəkdiyi zəhmətlər bəhrəsini verməyə başlayır. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə, məsuliyyətinə baxmayaraq o, bu sahədə böyük uğurlar əldə edir. Qarşısına qoyduğu ən ali məqsədə böyük zəhmətlər hesabına nail olan Zərifə xanımın elmi axtarışlarının, əməli fəaliyyətinin bəhrəsini Azərbaycan vətəndaşları görməyə başlayırlar.

Zərifə Əliyeva tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə - traxomanın müalicəsində və onun ağırlaşdırıcı hallarda daha təsirli vasitələrin öyrənilməsinə, o dövr üçün yeni olan antibiotikdən - sintomisindən istifadə olunmasına həsr edir. Çünki sintomisin geniş antibakterial spektrlərlə yanaşı, antixlamedik fəallığa malik idi. Bu dövrdə Zərifə xanım yalnız çalışdığı institutda fəaliyyət göstərməklə kifayətlənmirdi. O, respublikanın şəhər və rayonlarını gəzərək xəstəliyin yaranma səbəblərini araşdırır, xəstəlik ocaqlarında kompleks şəkildə müalicə-profilaktik tədbirlər həyata keçirir, uşaq evlərində tərbiyə alan kimsəsiz uşaqlar arasında yayılan traxoma xəstəliyinin qarşısını almaqda xüsusi xidmət göstərirdi.

Uğurlu tədqiqatların nəticələri Z.Əliyevanın 1960-cı ildə müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etmişdir. Bu sahə üzrə ixtisaslaşaraq elmlər namizədi dərəcəsinə yüksələn Zərifə xanımın tətbiq etdiyi müalicə tezliklə bütün respublikada tətbiq edilir. Bununla da Azərbaycan bu xəstəlikdən xilas olur.



Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğvi Zərifə xanımın adıyla bağlıdır.

Traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi üzrə elmi işləri yekunlaşdırdıqdan sonra Zərifə Əliyeva oftalmologiya elmi üçün vacib olan digər istiqamətlərdə tədqiqatlar aparmağa başlayır. O, qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı bir sıra tədqiqat işləri aparır. Həmin tədqiqatların nəticəsindən bəhs edən elmi işlərin mətbuatda dərc olunması klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin yüksəlməsinə zəmin yaratdı.

Zərifə Əliyeva 1960-cı ildən 1967-ci ilədək Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır. Ona oftalmologiya ixtisası üzrə böyük elmi işçi adı 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən verilmişdir.

1967-ci ildə Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dossent vəzifəsinə dəvət olunur. (Bu institut ömrünün son illərində həmin kollektivə rəhbərlik etmiş mərhum professor Əziz Əliyevin - Zərifə xanımın atasının adını daşıyırdı.)

Həmin dövrdə Zərifə Əliyeva həkimlik fəaliyyəti ilə məşğul olurdu. Belə ki, o, cərrahiyyə əməliyyatları aparır, xəstələrə dəyərli məsləhətlər verirdi və onun fəaliyyəti bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edirdi. Bununla yanaşı o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparırdı.

Tibbi təcrübə və kadr hazırlığı məsələləri ilə çox ciddi məşğul olmasına baxmayaraq Zərifə xanım elmi tədqiqat işlərinin davam etdirilməsinə böyük əhəmiyyət verir, həmin dövrdə oftalmologiyanın bir sıra aktual məsələlərinə diqqət yetirirdi. Bu məsələlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının patalogiyası daha çox cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə yox, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin demək olar ki, elmi şəkildə tədqiq olunması ilə əlaqədar idi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patalogiyası ilə məşğul olmağa başladı. Bir sıra ciddi elmi məsələlərlə yanaşı, o, bütün ömrü

boyu peşə ilə əlaqədar əmələ gələn göz xəstəliyi problemlərinə xüsusi maraq göstərmişdir. Eyni zamanda Zərifə xanım bir sıra məsələlərlə, o cümlədən yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir. O, bu problem üzərində iş apararkən çox vaxt sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Bununla yanaşı, Bakı və Sumqayıtın bir sıra sənaye müəssisələrinin, o cümlədən şin zavodunun sexlərində laboratoriya şəraitində elmi təcrübələr aparmışdır. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində o, zəhərli maddələrin görmə orqanlarına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

"Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb etmişdir.

Zərifə Əliyeva fundamental "Terapevtik oftalmologiya" kitablarının müəlliflərindən biridir. (Bu dəyərli kitab indi də hər bir oftalmoloq üçün stolüstü kitab olaraq qalır)

Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını (gözün əlvan təbəqəsində dəyişikliyi, iridodiaqnostikanı) ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Həmin kitab bu gün də həkimlərin iş təcrübəsində əvəzolunmaz elmi vasitə hesab olunur. Onun zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapmışdır. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültəsinin müəllimləri üçün böyük əhəmiyyət kəsb edir.

Zərifə Əliyevanı həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Onun çoxsaylı məqalələri, çıxışları, məhz bu məsələyə həsr olunmuş "Yüksək etimad" kitabı cəmiyyətdə həkimlərin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. O, səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə





gərgin əmək sərf etmişdir. Onun rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli formalaşmışdır. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. O, heç zaman gərgin işdən usanmamış, öz işinə məsuliyyətlə yanaşmış, insanlara ürəklə, vicdanla xidmət göstərmiş və bundan zövq almışdır. Onun həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi, qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, tutduğu yol ona həmkarlarının, yetirmələrinin, müayinə-müalicə etdiyi xəstələrin və ümumiyyətlə, xalqın hörmətini qazandırmışdır.

Xalq qarşısındakı əvəzsiz xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əziz qızı Əliyeva 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir.

Akademik Zərifə Əliyeva ömrü boyu böyük elmi ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin və Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Zərifə xanım bir sıra orden və medallara, Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. O, "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərinin birində - H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə



etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmiş, 1983-cü ildə isə həmin kafedranın müdiri vəzifəsinə irəli çəkilir. İlk günlərdən başlayaraq Zərifə xanım ətrafına istedadlı gənc həmkarlarını toplayaraq elmi-tədqiqat işini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bildi. Amma kafedranın mövcud bazası elmi tədqiqatların keçrilməsi tələblərinə cavab vermirdi. Zərifə Əliyeva bu problemin həlli yolunda bir sıra konkret addımlar atdı. 1977-ci ildə onun təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Belə bir tədbir Bakıda ilk dəfə keçirilirdi və təbii ki, bu böyük təşkilatçılıq bacarığı, zəngin təcrübə tələb edirdi. Plenuma hazırlığın və onun keçirilməsinin bütün ağırlığı Zərifə xanımın üzərinə düşdü. Bu plenumun keçirilməsi həm Azərbaycanda, həm də keçmiş İttifaqın ən yaxşı akademik müəssisələrində oftalmologiya xidmətinin inkişafında, habelə elmi-pedaqoji kadrların hazırlanmasında müstəsna rol oynadı.

Plenum Azərbaycanda görmə orqanının peşə patalogiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaranması barədə professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü bəyəndi. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda onun təşəbbüsü və təşkilatçılığı ilə yaradılan həmin laboratoriyada az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, kliniki, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparıldı. Elmi araşdırmalar



nəticəsində Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patalogiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirdi. Bu əsərlər dünyanın elmi ictimaiyyətinin etimadını qazandı.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patalogiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Xüsusilə qeyd edilməlidir ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Zərifə Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən (1983) sonra onun fəaliyyəti daha da genişləndi. Qeyd etmək lazımdır ki, Zərifə Əliyevanın elmi maraqları yalnız görmə orqanının peşə patalogiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını yaxşılaşdırmış, onların müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim - oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, məsələn, "Herpetik göz xəstəliyi", "Ağır virus konyiktivləri" və s. məhz bu məsələlərə həsr olunmuşdur.

Həmin dövrdə Zərifə Əliyeva qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş maraqlı tədqiqatlar aparmışdır. Gərgin və gərəkli tədqiqatlar nəticəsində o, bir sıra elmi məqalələr, eləcə də "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi" monoqrafiyalarını çap etdirmişdir. Zərifə xanım həm də gözün zədələnməsinin proflaktikası və müalicəsi imkanlarını öyrənmişdi. Bir sıra elmi işlərində o, görmə orqanı zədələndikdə mövcud olan cərrahiyyə əməliyyatları üsullarını araşdırmış, həmin üsulların təkmilləşdirilməsi üçün bir sıra faydalı tövsiyyələr işləyib hazırlamışdır. Bu tövsiyyələr cərrahiyyə əməliyyatlarına məruz qalan zədələnmiş görmə

orqanının müalicəsini xeyli yüngülləşdirmişdir. Onun bir çox elmi işləri görmə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur.

Zərifə Əliyeva Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyətilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərəli təklifin müəllifidir. O, Azərbaycan iridologiyasının banisidir və bu sahədə elmi məktəb yaratmışdır.

Azərbaycanın layiqli övladı Zərifə xanımın elmi nailiyyətlərindən, xalq qarşısındakı xidmətlərindən çox danışmaq olar. Hətta bu barədə illərlə danışılsa, cild-cild kitablar yazılsa, yenə də azdır. Onun həyat və fəaliyyətinin hər anı bir salnamədir və min illər bundan sonra da xalqımız Zərifə Əliyevanın xidmətlərindən, daha dəqiq desək, bizlərə bəxş etdiyi zəngin məktəbdən yararlanacaq. O, sözün əsl mənasında, bir məktəb yaratmışdır və məktəbdən yararlananlar təkcə elmi sahədə deyil, həm də həyatda böyük uğur qazanacaqlar...

Əvvəldə qeyd etmişdik ki, Zərifə xanım mərdliyi, mübarizliyi ilə də başqalarından fərqlənirdi və demək olar ki, onun bu xüsusiyyətləri indi də nümunə kimi göstərilir. Zərifə Əliyevanın ümummilli liderimiz, xalqımızın böyük oğlu Heydər Əliyevin həyat yoldaşı kimi onunla çiyin-çiyinə çalışdığı hər kəsə məlumdur.

Xalqımızın əzəli və əbədi lideri, nadir tarixi şəxsiyyət Heydər Əliyevin Zərifə Əliyeva ilə ilk tanışlığı ilə bağlı xatirələrindən danışarkən bir çox mətləblərə xüsusi diqqət yetirilmişdir.

Zərifə Əliyevanın atası Əziz Əliyevin Azərbaycanın ictimai-siyasi, elmi-mədəni, sosial-iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən işlər görməsi, xalqına qəlbən bağlı insan olması, milli-mənəvi dəyərlərimizin, dinimizin, dilimizin, adət-ənənələrimizin qorunmasında fədakarlıqlar göstərməsi hər kəsə məlumdur. Onun Azərbaycan xalqına olan bu sevgisi



azərbaycanlılara ögey münasibət bəsləyən, günahsız soydaşlarımızı repressiyalara məruz qoyan qəddar Stalinə, eləcə də onun əlaltılarına, xüsusilə yaltaq, riyakar ermənilərə xoş gəlmirdi. Təbii ki, Əziz Əliyevi yadların ona olan münasibəti deyil, xalqının taleyi maraqlandırırdı. Ona görə də xalqın sevgisini, inamını, hörmətini qazanmış Əziz müəllimin fəaliyyəti Stalinin qəzəbinə tuş gəldi. Əziz Əliyevə dəfələrlə tutduğu yoldan geri çəkilməsi ilə bağlı təkliflər edilsə də o, bunu etmədi. O, həyatının təhlükə ilə üzləşdiyini bilsə də, xalqına olan sevgisi bütün məncələrə üstün gəldi. Belə olan halda Stalinin və onun əlaltılarının bir "yol"u qalırdı ki, bu da Əziz Əliyevə şər atmaq, onu ləkələmək idi. Əslində xalq fədakar oğlunu yaxşı tanıyırdı və onun ünvanına deyilənlərin həqiqət olmadığını bilirdi. Amma heç bir məsələ Azərbaycan xalqının iradəsindən asılı olmadığı üçün hadisələrə reaksiya vermək mümkün deyil. Mərkəzdən hazırlınmış ssenari üzrə Əziz Əliyevə qarşı əsassız ittihamlar irəli sürüldü.

Hamıya məlumdur ki, sovet dövrünün öz qeyri-insani qanunları vardı və Stalinin hakimiyyəti illərində bu qanunlar daha da sərtləşdirilmişdir. Əgər bir kəsin haqqında mənfi rəy yaradılırdısa, o şəxsin bütün qohumlarına, yaxınlarına, nə zamansa evinə qonaq gəlmiş insanlara, ailəsinə qarşı insanlıqla bir araya sığmayan ittihamlar irəli sürülür, həmin insanlar təhqir və təqiblərə, işgəncələrə məruz qalır, sərt qadağalarla üzləşirdilər.

O dövrdə Əziz Əliyevin ailəsi ilə yaxın olan insanlardan bu ailə ilə əlaqələri kəsmək tələb olunurdu. Onlara hədə-qorxular gəlinir, müxtəlif təqiblərə məruz qalacaqları ilə bağlı fikirlər səsləndirilirdi. Bu, o vaxtlar idi ki, artıq Heydər Əliyev Zərifə xanımla tanış olmuş, bir-birlərinə ayrılmaz, qırılmaz tellərlə bağlı olduqlarını etiraf etmişdilər. Heydər Əliyevin öz gələcək həyat yoldaşı ilə mütəmadi olaraq görüşməsi Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən izlənilmiş və bu barədə faktlar əldə olunmuşdur. Həmin vaxt Heydər Əliyev özü də bu sahədə çalışırdı. Bu məsələyə dərindən diqqət yetirsək bir çox maraqlı məqamların şahidi olarıq. Dövlət tərəfindən Əziz Əliyevin ailəsi ilə əlaqələr qurmaq qadağan olunduğu halda, həmin dövlətin bir qurumunda çalışan Heydər Əliyev bu əlaqələri daha da genişləndirməkdə idi.



Hətta Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyi Heydər Əliyevi bu yoldan çəkindirmək istəmiş və rədd cavabı almışdır. Heydər Əliyevə bildirilmişdir ki, bu yoldan dönmədiyi halda Dövlət Təhlükəsizlik Komitəsinin sıralarını tərk etmək məcburiyyətində qalacaq və bundan sonra onun daha böyük təhlükələrlə üzləşəcəyi qaçılmaz olacaq.

Bütün bu deyilənlərə əhəmiyyət verməyən, nəinki vəzifəsini itirməkdən, hətta həyatının təhlükə ilə üzləşə biləcəyindən qorxmayan Heydər Əliyev fikrində qəti idi.

Məlum məsələ idi ki, Heydər Əliyev nə üçün bu yoldan bir addım belə geri çəkilmək fikrində deyildi. Birincisi, Heydər Əliyev gənc olmasına baxmayaraq yenilməz, mərd, qətiyyətli, qorxmaz, fədakar, cəsur bir şəxs idi və dərəcəsindən asılı olmayaraq heç bir maneə onu sarsıda, tutduğu yoldan çəkindirə bilməzdi. Tariximizin onun adı, fəaliyyəti ilə bağlı olan dövründə biz bunun şahidi olduq.

İkincisi, Heydər Əliyev bilirdi ki, Əziz Əliyev Azərbaycanın layiqli övladıdır və onun haqqında qəsdən formalaşdırılan mənfi rəy həqiqətdən tamamilə uzaqdır. Əziz Əliyevin xalq qarşısındakı xidmətlərinə bələd olan Heydər Əliyev bilirdi ki, o, nə zamansa ona şər-böhtan atanların özləri tərəfindən bəraət alacaq. Əsrlər ötsə də o, azərbaycanlıların qəlbində yaşayacaq. Belə də oldu.

Üçüncüsü, Zərifə Əliyevanın əsl azərbaycanlı xanımına xas olan yüksək əxlaqi dəyərlərə malik olması, tanınmış, xalq arasında xüsusi rəğbət qazanmış bir ailədə tərbiyə alması, eyni zamanda insanlara xidmət göstərmək üçün qarşısına qoyduğu məqsəd, tutduğu düzgün yol və bu kimi digər amillər Heydər Əliyevi ona qəlbən bağlayırdı.

Digər tərəfdən, Heydər Əliyev verdiyi sözə əməl edən, tutduğu yoldan geri çəkilməyi bacarmayan, əhdə vəfalı, dosta



sədaqətli bir insan idi. Bütün sadalanan amillərin fonunda təbii ki, bu iki gəncin bir-birindən ayrılacağı mümkün deyildi. Sözsüz ki, əsas yük Heydər Əliyevin üzərinə düşürdü. Çünki o, hansısa qüvvədən qorxaraq öz xoşbəxt gələcəyinə qarşı çıxa bilməzdi. O, Zərifə xanıma könül verdiyi gündən bunun məsuliyyətini bilirdi və gələcəkdə quracaqları ailənin xoşbəxtliyinə, xalqın mədəni, elmi, ictimai həyatında birgə mühüm rol oynayacaqlarına inanırdı.

O dövrdə baş verənləri xatırlayanda insan nə qədər sıxıntı keçirsə də, bir o qədər də qürur hissi yaşayır. Bəli, qəddar Stalinin çirkin siyasəti Heydər Əliyevin polad iradəsi qarşısında aciz idi. Bundan qürur, iftixar hissi keçirməmək mümkün deyil. Doğrudur, Heydər Əliyevlə Zərifə Əliyeva ailə quran vaxt artıq Stalin ölmüşdü. Lakin o dövrə qədər bu iki gəncin görüşlərinə mane olmaq cəhdləri nəticəsiz qalmışdı. Uzun illər məmləkəti dolaşan Stalin xofu, ondan miras qalan çirkin siyasət də onları ayıra bilmədi. Beləliklə, yüksək əxlaqi dəyərlərə malik ailələrdə tərbiyə almış iki gəncin ailə həyatının təməli qoyuldu.

Xalqımızın böyük oğlu, dünya siyasətinin əvəzsiz lideri, görkəmli dövlət xadimi Heydər Əliyev hələ Dövlət Təhlükəsizlik Komitəsində çalışdığı illərdə və bu quruma rəhbərlik etdiyi vaxtda özünü dünyaya sülhün, sabitliyin, əmin-amanlığın zəmanəti kimi sırımağa çalışan SSRİ dövlətinin başında duran insanların Azərbaycana və azərbaycanlılara qarşı ögey münasibət bəslədiklərini, çirkin siyasət yürütdüklərini yaxşı bilirdi. Onun çalışdığı sahə bilavasitə bu məsələlərlə bağlı idi. Heydər Əliyev azərbaycanlılara qarşı edilən haqsızlıqları tutarlı faktlarla bir daha təsdiqləmişdi. Xalqımızın üzləşdiyi haqsızlıqların aradan qaldırılması, ədalətin bərqərar edilməsi üçün yollar arayan Heydər Əliyev yenə qətiyyət nümayiş etdirir, vəzifəsini itirəcəyindən zərrə qədər də olsa çəkinmir, əsl həqiqətin nədən ibarət olduğunu açıq şəkildə cəmiyyətə çatdırmaq istəyirdi. Amma bu məsələdə tələskənliyə yol vermək, emosiyalara qapılmaq, xırda bir düşünülməmiş addım atmaq böyük faciələrə səbəb ola bilərdi. Zəngin bilik və bacarığa malik olan Heydər Əliyev hər şeyi yaxşı dərk edir, işini ehtiyatla aparırdı. Məsələ o qədər ciddi idi ki, son dərəcə təmkinli və qətiyyətli olmaq, güclü siyasət yürütmək lazım gəlirdi.

Heydər Əliyev gənc olmasına baxmayaraq olduqca təmkinli, ardıcıl siyasət yürüdürdü. Baxmayaraq ki, o, bu cür işlərlə məşğul olmalı deyildi, amma onu ən birinci düşündürən Azərbaycan xalqının taleyi idi. Həyatı boyu haqsızlığa qarşı çıxan, insanlara ali varlıq kimi baxılmasının tərəfdarı olan, dilindən, dinindən, milliyyətindən, irqindən, cinsindən, hətta siyasi baxışlarından asılı olmayaraq hər kəsə eyni münasibət bəslənilməsinin zəruriliyini ifadə edən Heydər Əliyev antiazərbaycan siyasəti yürüdənlərin bu çirkin əməllərinə son qoyulacağı günü görürdü. O, uzaqgörən siysətçi, fitri istedada malik bir şəxs kimi haqq-ədalətin nə zamansa qalib gələcəyinə inanaraq buna əmin idi. Azərbaycanlılara qarşı münasibət dəhşətliydi və Heydər Əliyev bundan keçirdiyi iztirabları büruzə vermədən öz işində idi, tutduğu yolu davam etdirirdi. Bu yol haqq-ədalət yolu idi. Sonda həmişə haqq-ədalət zəfər çalır. Ümummilli liderimiz başladığı bu yolu zəfərlə sona çatdıracağına inanırdı. O, hər şeydən öncə, Azərbaycan və onun vətəndaşlarının gələcəyi barədə düşünürdü.

Ümumiyyətlə, tarixdə baş verən hadisələrə nəzər salanda görürük ki, Sovet Hakimiyyəti Azərbaycana qarşı daha çirkin siyasət yürüdürdü. Ən dəhşətlisi isə o idi ki, bu quruluş Cənubi Qafqaza, o cümlədən Azərbaycana ayaq basdıqları gündən xalqımıza qarşı soyqırımı siyasəti həyata keçirən, on minlərlə vətəndaşımızı qətlə yetirən ermənilərə hərtərəfli dəstək verir, onların maraqlarını təmin edirdi. 1918-ci ildə ermənilər tərəfindən dünyada analoqu olmayan bir vəhşiliyin törədilməsi, bu soyqırımı zamanı yüz minə yaxın soydaşımızın öldürülməsi hər kəsə məlumdur və bu qanlı cinayət tarixin qara səhifəsi kimi heç zaman unudulmayacaq.

Həmin dövrdə baş verən erməni vəhşiliklərinin qarşısını almağa müvəffəq olan Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasında da erməni xəyanəti əsas rol oynadı. Sovet qoşunları ilə birlikdə Azərbaycan ərazilərində vəhşiliklər törədən erməni quldurları insanlıqla bir araya sığmayan ən çirkin oyunlara əl atdılar. Nəhayət, 1920-ci ildə Azərbaycanda Sovet Hakimiyyəti quruldu. Qısa zaman ərzində tarixi torpağımız olan Zəngəzur Ermənistana verildi. Danılmaz faktdır ki, Ermənistan özü tarixi Azərbaycan torpaqları üzərində yaradılmışdır. Zəngəzurun ardınca İrəvan da ermənilərə verildi.





Lakin "türksüz Ermənistan" yaratmaq istəyən ermənilər bununla kifayətlənmək istəmir, müxtəlif yollarla azərbaycanlıları qətlə yetirərək torpaqlarımızı zəbt etməyə səy göstərirdilər.

Dövr, zaman bir qədər dəyişdiyindən ermənilər bu çirkin siyasətlərini fərqli şəkildə həyata keçirməyə başlamışdılar. Hiyləgər düşmən Azərbaycanda məsul vəzifələrdə çalışır və xalqımıza qarşı çirkin siyasət yürüdürdü. Ötən əsrin 30-cu illərində azərbaycanlılara qarşı həyata keçirilən qanlı repressiyalarda Azərbaycanda yüksək vəzifələrdə çalışan ermənilərin bağışlanılmaz günahları vardır. Belə ki, bu ermənilər Azərbaycanın döyünən ürəyi, görən gözü, düşünən beyni hesab olunan mərd övladlarına "xalq düşməni" damğası vuraraq onların siyahısını Moskvaya - qəddar Stalinə göndərirdilər. Heç bir araşdırma aparılmadan, məhkəmə qərarı olmadan həmin adamlar güllələnir, ömürlük həbslərə atılır, yaşayış üçün nəzərdə tutulmayan ərazilərə sürgün edilirdilər. Ermənilər Moskvadan təsdiqini taparaq qayıdan siyahıya yenidən xeyli azərbaycanlının adlarını əlavə edərək onları güllələyirdilər.

II Dünya müharibəsi dövründə də ermənilər azərbaycanlılara xəyanət etmiş, xalqımıza qarşı İttifaq miqyasında mənfi rəy formalaşdırmağa səy göstərmişlər. Onlar buna müəyyən qədər nail olsalar da, azərbaycanlıların müxtəlif cəbhələrdə göstərdikləri qəhrəmanlıqlar erməni yalanlarının ifşa olunmasına şərait yaratdı.

Müharibədən sonra da ermənilər çirkin siyasətlərindən əl çəkməmiş, yeni planlar hazırlayaraq həyata keçirməyə başlamışlar. 1948-1953-cü illərdə azərbaycanlıların tarixi ata-baba torpaqlarından - Ermənistan ərazilərindən didərgin salınaraq Azərbaycanın digər bölgələrinə, əsasən Aran zonasına köçürülməsi də ermənilərin çirkin planlarının nəticəsi

idi. Acınacaqlı bir fakt ondan ibarətdir ki, ermənilər SSRİ Nazirlər Sovetinin belə bir qərar imzalamasına nail olmuş və insanlıqdan uzaq hərəkətlərinə hüquqi don geydirmişlər. Bu köçürülmə zamanı 250 min nəfərdən çox azərbaycanlı doğma torpaqlarından qovularaq yaşayış üçün heç bir şəraiti olmayan ərazilərə köçürülmüşlər. Didərginlik taleyi yaşamaq məcburiyyətində qalan soydaşlarımız arasında ölənlərin, daha doğrusu, ermənilər tərəfindən öldürülənlərin, yaralananların, işgəncələrə, təqiblərə məruz qalanların sayı kifayət qədər idi. Onların pozulmuş hüquqları isə SSRİ rəhbərliyini qətiyyən maraqlandırmırdı.

SSRİ Nazirlər Sovetinin bu köçürülmə ilə bağlı imzaladığı qərarın bir sıra müddəaları vardır. Belə ki, bu bədnam qərarda göstərilirdi ki, köçürülən əhaliyə məxsus daşınan əmlak və digər var-dövlət onların özlərinə verilməlidir. Digər tərəfdən, köçürülən azərbaycanlı əhaliyə xüsusi avtomobillərin və başqa nəqliyyat vasitələrinin ayrılması da məlum qərarda yer almışdır. Hətta bunun üçün müəyyən vəsait də ayrılmışdır. Amma ermənilər bu müddəaların heç birinə əməl etmədilər. Yalnız bu çirkin qərarın tez bir zamanda həyata keçirilməsi üçün hər cür oyunlara əl atdılar.

Bunları ona görə xatırladırıq ki, Sovetlər Birliyi dövründə belə çirkin əməllər törədilib. Bu kimi halların nə qədər davam etdiyi hər kəsə məlumdur. Sovet dövlətinin himayəsi ilə ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliklərə, onların açıq və ya gizli şəkildə həyata keçirdikləri çirkin siyasətə 1969-cu ildən - ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərliyə gəldikdən sonra xitam verildi. Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişi ilə təkcə erməni vəhşiliklərinə deyil, həm də SSRİ rəhbərliyinin xalqımıza qarşı yürütdüyü siyasətə son qoyuldu.

Əvvəldə qeyd etdiyimiz kimi, Heydər Əliyev hələ gənc yaşlarında olarkən, Dövlət Təhlükəsizlik Komitəsində çalışarkən və bu quruma rəhbərlik edərkən xalqımıza qarşı tarixdə baş verənləri, eləcə də o dövrdə həyata keçirilən siyasəti yaxşı bilir, hiss edirdi. O, həm də bunun Azərbaycan xalqı üçün ciddi təhlükə və fəsadlar yaratdığını, bu kimi halların qarşısının alınmadığı təqdirdə gələcəkdə daha böyük faciələrə səbəb olacağını hamıdan yaxşı anlayırdı.



Sözsüz ki, SSRİ rəhbərliyinin antiazərbaycan siyasəti həm mənəvi sarsıntılara səbəb olmuş, həm də respublikamızın inkişafına mənfi təsir göstərmişdir. Xalqımızın dilinə, dininə, ədəbiyyatına, mədəniyyətinə, mənəviyyatına təcavüzlər edilir, tariximiz saxtalaşdırılırdı. Bir çox hallarda xalqımıza öz doğma ana dilində danışmaq yasaq edilmiş, bu sahədə məhdudiyyətlər tətbiq olunmuşdur. Xalqımıza öz tarixi keçmişini unutdurmaq üçün hər cür siyasət həyata keçirilirdi.

Bu azmış kimi, respublikamızın inkişafına da lazımi diqqət yetirilmirdi. Azərbaycanın sərvətləri hesabına digər respublikalarda böyük işlər görüldüyü halda, respublikamızda ciddi irəliləyişlər hiss olunmurdu. Heydər Əliyev Azərbaycana rəhbərliyə gələnə qədər Azərbaycan digər respublikalardan, o cümlədən tarixi torpaqlarımız hesabına yaradılan Ermənistandan da geri qalırdı. Dəhşətli faktdır. Çünki bu respublikaların hər birininin inkişafında Azərbaycanın xüsusi yeri vardır. Azərbaycandan daşınan xammal hesabına digər respublikalar inkişaf edir, bizə isə bundan cüzi pay düşürdü.

Acınacaqlı bir fakt ondan ibarətdir ki, Azərbaycanın təbii sərvətləri və canlı qüvvəsi hesabına inkişaf edən Ermənistan xalqımıza qarşı insanlığa uyğun gəlməyən hərəkətlərini davam etdirirdi.

Digər bir ciddi məsələ isə o idi ki, Heydər Əliyev respublikamıza rəhbərliyə başladığı günə qədər Azərbaycanda məsul vəzifələrdə çalışanların əksəriyyəti qeyri-azərbaycanlılar, o cümlədən ermənilər idi. Belə bir vəziyyətdə xalqımızın milli maraqlarının qorunmasından, Azərbaycanın inkişafından söhbət gedə bilməzdi. Xalqımızın görkəmli oğlu Heydər Əliyevi narahat edən məsələlər arasında milli kadrlara geniş yer verilməməsi də vardı. Hətta demək olar ki, Heyər Əliyev bundan ciddi narahatçılıq keçirirdi və o, milli kadrların yüksək vəzifələrə irəli çəkilməsi üçün özünəməxsus planlar hazırlayırdı. Nəhayət, daim müdrikliyi, əzəməti, mədəniyyəti ilə başqalarından seçilən, demək olar ki, bütün xüsusiyyətlərinə görə digər xalqlardan üstün olan Azərbaycan xalqı Tanrının sınaqlarından alnıaçıq, üzüağ çıxmağı bacardı. Haqsızlıqlara, qadağa və məhrumiyyətlərə dözən xalqımızın üzünə Tanrı güldü. 1969-cu ildə Azərbaycanın başı üstündən qara buludlar çəkilməyə başladı. Çünki həmin il Heydər Əliyev Azərbaycana



rəhbər seçildi.

Həmin dövrdə artıq neçə il idi ki, Heydər Əliyevlə Zərifə Əliyeva ailə həyatı qurmuşdular. Bu, sözün həqiqi mənasında, əsl azərbaycanlılara məxsus bir ailə idi. İstər yüksək əxlaqi dəyərləri, istərsə də ailədə olan qarşılıqlı münasibətlər baxımından belə demək olar. Əlbəttə, hər bir ailənin dəyəri onun möhkəm təməl üzərində qurulması, başqalarına nümunə ola biləcək bir şəkildə formalaşması ilə səciyyələnir.

Zərifə xanım Əliyeva elmi fəaliyyəti ilə yanaşı, ailəyə də geniş vaxt ayırır və ailə qayğılarıyla daha çox məşğul olurdu. Övladlarının tərbiyəli böyümələri, gələcəkdə xalqa, vətənə layiqli övlad kimi formalaşması üçün bir ana kimi üzərinə düşən məsuliyyəti dərk edir, ailənin ondan asılı olan işlərinin öhdəsindən layiqincə gəlirdi. Sözsüz ki, həm ailənin qayğıları ilə məşğul olmaq, həm nadir tarixi şəxsiyyətin həyat yoldaşı olmaq məsuliyyəti Zərifə xanımı qətiyyən yormurdu, əksinə,



o, bundan zövq alırdı.

Başqalarına nümunə olan bu ailənin xalq arasında xüsusi nüfuz qazanmasında Zərifə Əliyevanın böyük xidmətləri vardır. Onun ailəsinə sədaqətli olması təməli möhkəm sütunlar üzərində qurulmuş bu ailəni daha da əzəmətli, qüdrətli edirdi. Bu ailə həm də müqəddəs Tanrının buyurduğu əməllərə uyğun idi. Həyat yoldaşına sədaqət, övladlara məhəbbət Tanrının ana üçün buyurduğu ən vacib əməllərdən hesab olunur. Zərifə xanım bir ana kimi üzərinə düşən işlərin öhdəsindən layiqincə gəlirdi.

Məhəmməd Peyğəmbərin (s) zamanında bir ailə başçısı uzaq səfərə getməli olur və qayıdana qədər evdən bayıra çıxmaması ilə bağlı həyat yoldaşıyla əhd-peyman bağlayır.

Günlər ötsə də bu xanım həyat yoldaşının sözünə əməl edərək evdən bayıra çıxmır. Bir gün bu xanıma atasının xəstələnməsi ilə bağlı xəbər gəlir. Çıxılmaz vəziyyətdə qalan xanım Məhəmməd Peyğəmbərin (s) yanına adam göndərərək əri ilə bağladığı əhd-peyman və atasının xəstələnməsi barədə ona məlumat çatdırır: "Ya Peyğəmbər, həyat yoldaşım səfərə gedəndə qayıdana qədər evdən bayıra çıxmayacağımla bağlı mənimlə əhd-peyman bağladı. İndi isə atam xəstələnib. Mən nə etməliyəm?" Məhəmməd Peyğəmbər (s) bu xanıma qısaca cavab göndərir: "Evində qal, əhdinə vəfalı ol və ərinə itaət et." Günlər ötür, yenə də bu xanıma xəbər gəlir ki, atanın vəziyyəti ağırdır və demək olar ki, ölümlə üz-üzə dayanıb. Yenə də o, Məhəmməd Peyğəmbərin (s) yanına adam göndərir və ondan kömək istəyir: "Ya Peyğəmbər, indi atam ölümlə üz-üzədir. İcazə verirsinizmi son nəfəsində onun yanında olum?" Yenə də Peyğəmbərin eyni cavabı gəlir: "İcazə vermirəm, evində qal, ərinə itaət et, onun dediklərini unutma".

Bir neçə gündən sonra bu xanıma atasının rəhmətə getdiyi barədə xəbər gəlir. Yenə də o, Məhəmməd Peyğəmbərə (s) xəbər göndərir: "Ya Peyğəmbər, atam rəhmətə gedib, həyat yoldaşım isə hələ də səfərdən qayıtmayıb. İcazə verirsinizmi atamın namazına durum, onunla son vida mərasimində iştirak edim?" Bu dəfə də Peyğəmbərin cavabı eyni olur: "Yox, icazə vermirəm, ərinlə bağladığın əhd-peymana sədaqətli ol və ona itaət et." Bu qadın atasının ölümündən kədərlənsə, sarsılsa da Peyğəmbərin dediyi kimi edir. Gözüyaşlı qalmış bu qadına bir

neçə gündən sonra Məhəmməd Peyğəmbər (s) xəbər göndərir: "Ey ləyaqətli, əxlaqlı, sədaqətli qadın! Ərinlə bağladığın əhd-peymana sədaqətli olaraq ona itaət etdiyin üçün müqəddəs Tanrı tərəfindən bir səda gəlmişdir ki, sənin, ailənin və atanın günahları bağışlanır. Atan qəbr və qiyamət əzabından qurtulmuşdur. Məhz onun böyütdüyü, tərbiyə etdiyi övladının - sənin ərinə itaət etdiyinə görə."

Bütün canlı-cansız varlıqları yaradan, hamıdan və hər şeydən ucada dayanan müqəddəs Tanrı insanlara vacib olan əməlləri əyan etmişdir. Ailə qurmuş qadınlara da bir çox əməllər vacib buyurulmuşdur. Onlardan biri də ərə itaət etmək, ona ürəklə xidmət göstərmək, uşaqlara yaxşı tərbiyə verməkdir.

"İslamda ailə tərbiyəsi" kitabında belə bir hədis var: "Bir kişi Məhəmməd Peyğəmbərin (s) yanına gəldi və dedi: Ey Allahın Peyğəmbəri, mənim bir həyat yoldaşım vardır ki, nə zaman evə daxil oluram, məni qarşılayır, evdən çıxan vaxt yola salır. Haçan məni qəmgin göröndə soruşur: "Sevimli həyat yoldaşım, nədir səni qəmgin edən, əgər ruzi narahatlığın vardırsa, bil ki, Allah ruzuya zamindir. Əgər nigarançılığın axirətə görədirsə, Allah axirət barəsində nigarançılığı daha da davamlı edər, çünki "axirət barəsində nigarançılıq imanlı olmaq nişanəsidir"". Bu vaxt Peyğəmbər xitabən kişiyə buyurdu: - Bil ki, Allahın işçiləri (mələkləri) var, bu qadın da ilahi işçilərdən biridir və o, ərinə hörmət qoyduğuna görə şəhid və cihad edənlərin mükafatından yarısı onun üçün nəzərdə tutulmuşdur".

Bu kimi hikmətli, müdrik kəlamların, ailə münasibətlərindən bəhs edən dəyərli sözlərin hər birini Heydər Əliyevlə Zərifə Əliyevanın qurduğu ailəyə aid etmək olar. Zərifə xanım Heydər Əliyevə bəslədiyi münasibətdə həyat yoldaşına sədaqət və itaət nümunəsi yaratdı.

Qürur doğuran başqa bir məqam ondan ibarət idi ki, Heydər Əliyev və Zərifə Əliyeva fəaliyyətlərinin əsas hissəsini xalqa, vətənə sədaqətlə, vicdanla xidmət üzərində qurmuşdular. Bir çox cəhətdə onlar arasında oxşarlıq vardı. İnsanlara münasibətdə, humanistlikdə, qayğıkeşlikdə, milli maraqları hər şeydən üstün tutmaqda və bir çox cəhətlərdə onlar bir-birinə tam şəkildə bənzəyirdilər. Eyni zamanda onların hər ikisi müəyyən əziyyətlər çəkməklə bu günə gəlib çatmış, ailə



qurmaq yolunda çox manecələri dəf etməli olmuşdular. Onların qətiyyəti, dönməzliyi, iradəsi qarşılarına çıxan hər maneəni dəf etmək üçün yetərli idi. Belə bir ailənin qurulması həm də Azərbaycan xalqının xeyrinə idi.

Elmi fəaliyyəti Zərifə xanıma qayğıkeş, mehriban bir ana kimi övladlarını böyütməyə, onlara düzgün tərbiyə verməyə mane olmurdu. Doğrudur, onun işi olduqca çətin və məsuliyyətli idi. Amma o, bunların hər birinə vaxt tapırdı və Zərifə xanım əksər hallarda qarşısına qoyduğu məqsədə narahat gündüzləri, yuxusuz gecələri ilə nail olurdu. Əlbəttə, Zərifə Əliyevanı narahat edən bir çox amillər vardı.

Birincisi, o, dünya işığına həsrət qalmış və görmə orqanında problem olan insanların hamısının şəfa tapması arzusunda idi və bunun üçün əlindən gələni edirdi. O, qarşısına daha ciddi məqsədlər qoymuşdu. Zəhmətkeşliyinə, bilik və bacarağına güvənən Zərifə xanım arzularına qovuşmaq üçün ən böyük köməyi Allahdan istəyir, gecə-gündüz Böyük Yaradana dualar edirdi. Onun ən böyük arzusu və istəyi insanların xoşbəxtliyi, görmə problemi olanların tezliklə şəfa tapması idi. Bir ana və həkim kimi o, insanların bu cür ciddi problemlərlə üzləşməsindən sarsılırdı. Oftalmologiya elmində yeniliklər edən, insanların dünya işığından məhrum olmamaları üçün əlindən gələni əsirgəməyən Zərifə Əliyevaya inam getdikcə artırdı. Getdikcə o, xalqın sevimlisinə çevrilməkdə idi.

Zərifə xanımı narahat edən digər bir məsələ həm də Azərbaycan xalıqna qarşı uzun illər bəslənilən münasibət idi. Onların ailəsi də bu cür haqsızlıqlardan əziyyət çəkmişdi. O, həmişə düşünürdü ki, görəsən nə üçün azərbaycanlılara qarşı bu cür ögey münasibət bəslənilir?! Lakin Zərifə xanım inanırdı ki, nə zamansa haqq-ədalət öz yerini tapacaq, günahsız insanlara qarşı edilən haqsızlıqlara son qoyulacaq. Axı Zərifə Əliyeva heç bir millətə fərq qoymadan ona müraciət edən hər kəsə şəfalı əllərilə yardım edirdi. Bu, bir insanlıq nümunəsi, qadın, ana ürəyinin böyüklüyü idi. Təəssüflər olsun ki, SSRİ rəhbərliyi humanistlikdən, hətta insanlıqdan uzaq hərəkətlərə göz yumur, əksər hallarda buna rəvac verirdilər. Rəhbərliyin özü də Azərbaycan xalqına düzgün münasibət bəsləmir, respublikamıza yalnız xammal bazası, vətəndaşlarımıza isə demək olar ki, kölə kimi baxırdılar. Bu isə hər bir sahəyə öz

mənfi təsirini göstərirdi.

Azərbaycanın böyük oğlu, nadir tarixi şəxsiyyət Heydər Əliyev respublikamıza rəhbər seçildiyi ilk gündən hamı kimi, Zərifə xanım da inanırdı ki, qısa zaman ərzində xalqımıza qarşı edilən haqsızlıqlara son qoyulacaq, vətənimizin səmasından qara buludlar çəkiləcək. Zərifə Əliyeva Heydər Əliyevin bilik və bacarığına, qətiyyətinə, polad iradəsinə, siyasi qüdrətinə, bir sözlə, onun bütün keyfiyyətlərinə bələd idi. Məhz bu səbəbdən idi ki, o, Azərbaycanın xoşbəxt gələcəyinə, Heydər Əliyevin rəhbərliyi ilə vətənimizin çiçəklənəcəyinə inanırdı. Qeyd olunduğu kimi, o vaxta qədər mövcud olan vəziyyət həmişə Zərifə xanımı narahat edirdi. Xalqımızın layiqli övladı, milyonların sevimlisinə çevrilən Zərifə Əliyeva Azərbaycanı layiq olmadığı bir yerdə gördüyü üçün sarsılırdı. Əlbəttə, Azərbaycan ən ali zirvələri fəth etməyə layiq və qadir idi. O dövrdə bütün göstəricilərə görə Azərbaycanın "müttəfiq" respublikalardan geri qalması yalnız təəssüf doğururdu. Mövcud vəziyyət xalqımızın iradəsi və maraqları ilə ziddiyyət təşkil edirdi. Çünki xalqımızın potensialı, respublikamızın iqtisadi imkanları Azərbaycanın dinamik inkişafına münbit şərait yaradırdı.

Zərifə xanım Əliyeva yanılmamışdı və hadisələrin sonrakı inkişafı bir daha bunu təsdiq etdi. Etiraf edək ki, o dövrdə Azərbaycanın tezliklə uğurlara imza atacağına inananların sayı kifayət qədər deyildi. Bu da başadüşülən idi. Çünki xalqımız öz müqəddəratını həll etmək haqqından çoxdan məhrum edilmişdi və uzun illər idi ki, yaxşılığa doğru heç nə dəyişmirdi.

Lakin 1969-cu ildən etibarən hər şey əksinə xalqımızın maraqlarına uyğun şəkildə dəyişdi. Heydər Əliyevin Azərbaycan SSR KP MK-nın I katibi seçilməsi ilə demək olar ki, xoşagəlməz hallar tarixə çevrilərək arxada qaldı. O vaxta qədər çoxları Heydər Əliyevi yaxşı tanımırdı. Lakin Heydər Əliyevin qətiyyətli addımları tezliklə onun ümumxalq məhəbbəti qazanması ilə nəticələndi. Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi SSRİ imperiyasının başında duran şəxslərin özləri də bilmədən azərbaycanlılara etdikləri ən böyük hədiyyə idi. Bəlkə də bu, Tanrının qisməti, xalqımızın alın yazısı idi.





Heydər Əliyev Azərbaycandakı mövcud vəziyyətlə çoxdan tanış olduğuna görə baş verən hadisələri analiz etmək, görüləcək işləri müəyyənləşdirmək üçün vaxt itirməyə ehtiyac qalmamışdı. Uzun illər idi ki, o, respublikamızdakı vəziyyəti analiz edir və bundan çıxış yollarını müəyyənləşdirirdi. Amma etiraf edək ki, qorxunc imperiyanın sərt qanunlarının mövcud olduğu bir vaxtda xalqın maraqlarına uyğun addımlar atmaq böyük cəsarət tələb edirdi. Sözsüz ki, həmin dövrdə Azərbaycan xalqının maraqlarına uyğun siyasət yürütmək imperiyaya qarşı çıxmaq demək idi. Ona görə də bu sahədə hər hansı işlər görmək böyük cəsarət tələb edirdi. Əlbəttə, təkcə cəsarət yox, həm də siyasi ustalıq, uzaqgörənlik lazım gəlirdi. Heydər Əliyev bütün bu kimi müsbət keyfiyyətlərə malik yeganə şəxsiyyət idi. O, bilirdi ki, Azərbaycanla bağlı çox ciddi məsələlər həllini tapmalıdır. Bu cür məsələlərin həllində bir an belə nə gecikmək, nə də tələskənliyə yol vermək olardı. Hər bir prosesi diqqətdə saxlamaq, mövcud vəziyyəti tam şəkildə nəzarətə götürmək, arzulanan nəticələri əldə etmək üçün düşünülmüş addımlar atmaq lazım gəlirdi.

Demək olar ki, respublikamızın, xalqımızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında hər hansı işlər görmək üçün hər şeyi sıfırdan başlamaq lazım gəlirdi. Bunları deməklə, o vaxta qədər Azərbaycanda görülən işlərə kölgə salmaq, qazanılmış ən cüzi uğurları belə inkar etmək fikrində deyilik. Sadəcə etiraf etmək lazımdır ki, Heydər Əliyevin

respublikamıza rəhbərliyə gəlişi ilə Azərbaycanın və onun vətəndaşlarının, xüsusilə azərbaycanlıların həyatında tamamilə yeni mərhələnin əsası qoyulmuşdur. Bu mərhələ bütün sahələri əhatə edirdi.

Vəziyyət isə olduqca mürəkkəb idi. Həm ideoloji mübarizədə qalib gəlmək, həm də respublikamızın sürətli, hərtərəfli inkişafına nail olmaq lazım gəlirdi. Şübhəsiz ki, bu kimi işlər bir-biri ilə sıx bağlı idi və paralel şəkildə həyata keçirilməli idi.

Heydər Əliyev xalqımızın maraqlarının əksinə yönəlmiş istənilən qərarı qətiyyətlə rədd edir, xalqlar, millətlər arasında ayrı-seçkilik siyasəti aparılmasının yolverilməz olduğunu, bunun acı nəticələr verə biləcəyini diqqətə çatdırırdı.

Əvvəldə qeyd etdiyimiz kimi, həmin dövrə qədər tarixin bütün mərhələlərində ermənilər azərbaycanlılara qarşı gizli planlar həyata keçirmişlər və bu kimi hallar xalqımızı böyük itkilərlə üz-üzə qoymuşdur. Soydaşlarımızın ermənilər tərəfindən soyqırımına, təhqirlərə, işgəncələrə məruz qalmaları, tarixi torpaqlarımızdan deportasiya edilmələri adi hala çevrilmişdi. Qərbi Azərbaycanda yaşayış məntəqələrinin adları dəyişdirilərək şəhərlərə, kəndlərə erməni mənşəli adlar verilirdi. Halbuki həmin yerlər tarixən xalqımıza məxsus olmuşdur. Bu cür addımlar atmaqla ermənilər tarixi saxtalaşdırırdılar. İmperiya isə birtərəfli qaydada erməniləri himayə edir, onların insanlıqdan uzaq hərəkətlərinə nəinki göz yumur, hətta bu cür halların ört-basdır edilməsi üçün hər yola əl atırdı.

Qeyd edilən belə xoşagəlməz hallar 1969-cu ilə kimi baş vermişdir. Həmin ildən ermənilərin və onların havadarlarının azərbaycanlılara qarşı uzun illər həyata keçirdikləri çirkin siyasətə son qoyuldu. Bundan ən çox sarsılan ermənilər idi. Onlar nə zamansa belə bir keçilməz səddlə üzləşəcəklərini bəlkə də düşünmürdülər. Çirkin siyasətlərini planlaşdırdıqları ssenari üzrə həyata keçirən ermənilər Heydər Əliyev kimi qətiyyətli, güclü bir siyasətçinin Azərbaycana rəhbərliyə gəlməsindən məyus olmuşdular.

Tarix boyu azərbaycanlılara qarşı dünyada analoqu olmayan siyasət yürüdən ermənilər Heydər Əliyev qətiyyəti qarşısında aciz qalaraq mövqelərindən, tutduqları "yol"dan geri çəkildilər.



Ermənilər heç zaman bu cür vəziyyətlə qarşılaşmadıqları üçün bir qədər çaşqınlıq hissi yaşayırdılar. Azərbaycanda baş verən proseslər ermənilərin maraqlarının əksinə idi. Ermənilərlə dinc qonşuluq, qarşılıqlı hörmət şəraitində yaşanılması üçün heç bir problem yox idi. Lakin bu da erməniləri qane etmirdi. Amma buna məcbur idilər və başqa əməllərə əl atmaq mümkün deyildi.

Ümummilli liderimizin başladığı və uğurla həyata keçirdiyi ideoloji mübarizə təkcə ermənilərə qarşı deyildi. Bu mübarizə həm də onlara havadarlıq edənlərə qarşı yönəlmişdi. Amma əsas məsələ Azərbaycan xalqının maraqlarının qorunması idi. Bunun üçün Heydər Əliyev düşünülmüş, ardıcıl, məqsədyönlü və olduqca ağıllı siyasət yürüdürdü.

Heydər Əliyev hər zaman milli kadr potensialının gücləndirilməsini zəruri hesab edirdi və o, düşünürdü ki, hər bir xalqın, millətin maraqlarının qorunması üçün bu, oldduqca vacib amildir. Getdikcə respublikamızda milli kadrlara geniş yer verilir, onlar yüksək vəzifələrə irəli çəkilirdilər. Şübhəsiz ki, Heydər Əliyev qeyri-azərbaycanlıların yüksək vəzifələrdə təmsil olunmalarının əleyhinə deyildi. Lakin o, başqa respublikalardakı vəziyyətin Azərbaycanda da tətbiq olunmasını vacib hesab edirdi. Belə ki, hər bir respublikada çoxluq təşkil edən xalqın nümayəndələrinin məsul vəzifələrdə digər millətlərə nisbətən çox olması normal hesab olunurdu və ona görə Azərbaycanda da bu cür addımın atılmasına ehtiyac vardı. Acınacaqlı digər bir məqam ondan ibarət idi ki, daim xalqımıza qarşı düşmən mövqeyində dayanan erməni millətindən olan xeyli sayda şəxslər respublikamızda yüksək vəzifələr tutmuşdular. Belə olan halda milli maraqların təmin olunması çətinləşirdi. Bu məsələni diqqətdə saxlayan ulu öndərimiz yaxşı bilirdi ki, Azərbaycan üçün azərbaycanlılar qədər can yandıran ikinci bir millət ola bilməz.

Heydər Əliyevin milli kadr siyasəti möhkəm təməl üzərində qurulmuşdu. Belə ki, o, təkcə mövcud kadr potensialından istifadə olunması ilə kifayətlənmir, yeni kadrların hazırlanmasına da xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü, hərtərəfli dəstəyi ilə azərbaycanlı tələbələr təhsil almaq üçün SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərilir, təhsillərini başa vurduqdan sonra ixtisasartırma kurslarına cəlb edilir,



vətənə formalaşmış kadr kimi qayıdırdılar. Bu kadrlar qısa zaman ərzində ixtisaslarına, peşələrinə uyğun işlə təmin olunurdular. Eyni zamanda azərbaycanlı mütəxəssislər xarici ölkələrə göndərilir, həmin ölkələrdə müəyyən vaxt ərzində işləyir və təcrübə toplayırdılar. Sözsüz ki, bu da respublikamızın inkişafında mühüm rol oynayırdı.

Heydər Əliyev azərbaycanlı tələblərin digər respublikalarda təhsil almalarını milli kadr hazırlığında və azərbaycanın hərtərəfli inkişafında yeganə yol hesab etmirdi. Belə işlər bu kimi sahələrdə atılacaq addımların bir hissəsini təşkil edirdi. Ona görə də ümummilli liderimiz Azərbaycanda hər bir sahənin inkişafında mühüm rol oynayacaq möhkəm baza yaratmaq fikrində qəti idi. Ayrı-ayrılıqda hər bir sahənin inkişaf etdirilməsi üçün sistemli şəkildə iş aparılırdı ki, bu da ümumilikdə respublikamızın inkişafına, xalqımızın milli maraqlarına xidmət edirdi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda bir çox yeni sahələr yaradıldı. Bu cür addımların atılması Azərbaycanın və onun vətəndaşlarının xoşbəxt gələcəyi üçün təminat idi.

Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə Azərbaycanda iki hərbi məktəb, mülki aviasiya məktəbi, müxtəlif profilli zavodlar, fabriklər, elm, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilib xalqın ixtiyarına verildi. Bu müəssisələrin hər birində peşəkar kadrlar çalışırdı və təchizat













































yüksək səviyyədə idi. Burada da milli kadrlara geniş yer verilmişdi. Xüsusilə hərbi məktləblərdə təhsil alanların böyük əksəriyyəti azərbaycanlılar idi ki, bu da böyük məktəblərdən xəbər verirdi. Deməк olar ki, Azərbaycanda əksər sahələrdə kadrlar hazırlanırdı və hər bir sahəyə hərtərəfli dəstək göstərilirdi. Heydər Əliyev hər bir sahənin inkişafına şəxsən nəzarət edirdi və elə sahə yox idi ki, onun diqqətindən kənarda qalsın.

Azərbaycan tikinti meydanını xatırladırdı. Respublikamızın hər yerində irimiqyaslı tikinti-quruculuq, abadlıq işləri həyata keçirilirdi. Yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda zövqləri oxşayan parklar, xiyabanlar salınır, yollar çəkilir, körpülər, yaşayış evləri, məktəblər, xəstəxanalar, idman və istirahət kompleksləri, mədəniyyət mərkəzləri, sanatoriyalar və s. tikilib ən yüksək səviyyədə insanların ixtiyarına verilirdi. Təkcə mərkəzi yerlərdə deyil, ucqar rayonlarda, hətta dağlıq ərazilərdə yerləşən yaşayış məntəqələrində işlər geniş vüsət almışdı. Azərbaycan çiçəklənmə dövrünə qədəm qoymuşdu. Başdan-başa gözəlləşən respublikamızda həyat sanki qaynar, coşqun məcraya yönəlmişdi. Yeni-yeni qəsəbələrin, kəndlərin salınması, hər yerin yaşıllıqlar diyarına çevrilməsi Azərbaycanın əsrarəngiz gözəlliyini daha da zənginləşdirirdi. Təbiətin qüdrətiylə insan zəhmətinin vəhdəti Azərbaycanı cənnətə çevirmişdi. Odlar Yurdunun hər qarışı gündən-günə gözəlləşir, zövqləri oxşayırdı.

Uzun illər xalqımızın keçirdiyi mənəvi sıxıntılar da aradan qaldırılmışdı. Zəngin mədəniyyətə, qədim tarixə malik olan xalqımızın milli-mənəvi dəyərləri nəinki qorunur, hətta dünyaya tanıdılırdı. Heydər Əliyev Azərbaycan mədəniyyətinin sərhədləri tikanlı məftillərlə müəyyən edilmiş, qapalı dövlət kimi tanınan SSRİ imperiyasının hüdudlarından kənarda təbliğ olunması üçün hər cür şərait yaratmışdı. Artıq dünya xalqları azərbaycanlıları daha yaxından tanıyır, onun tarixi, mədəniyyəti, keçmişi, özünəməxsus xüsusiyyətləri ilə daha yaxından maraqlanırdılar. Azərbaycanla bağlı həqiqətlər dünyanın hər yerinə çatdırılırdı. Dünyanın hər bir bölgəsində yaşayan insanlar Azərbaycanla daha yaxından tanış olmaq istədiklərini etiraf edir və onların respublikamıza gəlişi üçün

şərait yaradılırdı. Demək olar ki, Azərbaycan həqiqətləri, xüsusilə onun mədəniyyəti çərçivə, sərhəd tanımadan dünyanı dolaşırdı. Bununla da Azərbaycan dünyaya, dünya isə Azərbaycana get-gedə yaxınlaşırdı. Qarşılıqlı hörmət sayəsində bəşəri dəyərlər də Azərbaycana gətirilirdi.

Azərbaycanda hər bir sahənin inkişafı üçün yaradılan şərait xarici ölkələrdən böyük turist ordusunun respublikamıza axınını sürətləndirmişdi. Xarici ölkə vətəndaşları xalqımızın tarixi, mənəvi dəyərləri, milli mətbəxi, mədəniyyəti, ümumiyyətlə, bütün xüsusiyyətləri ilə maraqlanırdılar. O dövrdə respublikamızda olan amerikalı bir turist etiraf etmişdir ki, bu vaxta qədər Azərbaycanda olmadığım, azərbaycanlıların milli xüsusiyyətləri ilə bağlı kifayət qədər məlumatlı olmamağım üçün təəssüflənirəm və hesab edirəm ki, indiyə qədər çox şey itirmişəm. Həmin şəxs Azərbaycanı dünyanın ən gözəl ölkələri ilə müqayisə edərək bildirmişdir ki, buradakı insanların qonaqpərvərliyi, mədəniyyəti, əxlaqi dəyərləri məni sözün yaxşı mənasında, təəccübləndirdi.

Bəli, Azərbaycan mədəniyyəti dünyanı qarış-qarış dolaşırdı və sevindirici hal idi ki, xalqımızın yüksək milli-mənəvi dəyərlərə malik olması hər yerdə etiraf olunur, yüksək qiymətləndirilirdi. Belə olan halda respublikamızı görməyən insanlarda da Azərbaycan və azərbaycanlılar haqda xoş təəssüratlar yaranırdı.

Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin antiazərbaycan siyasəti yürüdənlərə qarşı apardığı ideoloji mübarizənin qələbəsi idi. Mübarizə aparılmadan qazanılan qələbə insanlar üçün şirin olmur. Bu qələbələr xalqımız üçün ona görə şirin və əvəzsiz idi ki, onların hər birinin qazanılması yolunda əzmkar mübarizə aparılmışdı. Saysız-hesabsız qələbələr naminə aparılan mübarizələrin önündə Heydər Əliyev kimi fenomen, əvəzsiz bir liderin getməsi isə azərbaycanlılar üçün daha əlamətdar idi.

Etiraf etməliyik ki, bu heç də sadə bir məsələ deyildi. Dünyanı qorxu içində saxlayan, öz mövcudluğunu qorumaq üçün insani dəyərləri belə ayaqlar altına atmağa hazır olan SSRİ kimi bir imperiyanın başında duranlarla mübarizə aparmaq olduqca çətin və təhlükəliydi. Amma Heydər Əliyev öz xalqının azad yaşaması, xoşbəxtliyi, haqq-ədalətin bərqərar



edilməsi naminə heç nədən qorxub çəkinmədən, həm də böyük ustalıqla - kiminsə ağlına belə gəlməyən bir şəkildə mübarizə aparırdı.

Əməlləri ilə əbədi yaşamaq haqqı qazanan Heydər Əliyev bütün gücünü, bilik və bacarığını Azərbaycanın xoşbəxt gələcəyi naminə başladığı haqq yolunu uğurla qət etməyə yönəltmişdi. Onun atdığı hər adım Azərbaycanın azadlığına xidmət edən siyasət idi və o dövrdə heç kim bunu anlamırdı.

Heydər Əliyev Azərbaycanda bütün sahələri əhatə edən inkişaf proqramı hazırlayaraq SSRİ rəhbərliyinə göndərmiş, 40-a yaxın nazirlik, komitə və təşkilat tərəfindən bu tədbirlər planının təsdiqlənməsinə nail olmuşdur. Sovetlər Birliyinin aidiyyatı qurumları bu vacib sənədə imza atmışdır. Heç bir sahə bu sənəddən kənarda qalmamışdır. Böyük işlər görülməsi üçün külli miqdarda vəsaitin ayrılması da həmin sənəddə əksini tapmışdır. Bu sənədin imzalanması asan başa gəlməmişdir. Çünki burada imzası olan şəxslərin əksəriyyəti Azərbaycan xalqına qarşı heç də düzgün mövqedə deyildilər. Amma buna baxmayaraq onlar Heydər Əliyev qətiyyəti, onun polad iradəsi, siyasi imkanları qarşısında aciz qalaraq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən sənədi imzaları ilə təsdiqlədilər. Bu vacib sənədin imzalanmasından sonra respublikamızda mövcud sahələrin inkişafında daha ciddi dönüş yarandı. Eyni zamanda yeni sahələrin yaradılması üçün zəruri addımlar atıldı. Artıq demək olar ki, Azərbaycanın zəngin sərvətlərinin respublikamızın sürətli inkişafına müsbət təsiri hiss olunurdu. Halbuki bir vaxtlar bu sərvətlərdən əldə olunan gəlirlər daha çox başqa respublikaların inkişafına yönəlirdi. Bu cür siyasətin aparılmasına artıq imkan verilmirdi. Azərbaycanda elm, təhsil, səhiyyə, mədəniyyət, sənaye, kənd təsərrüfatı, bir sözlə, bütün sahələr intibah dövrünə qədəm qoymuşdu.

Vaxtilə sovet ideologiyası nəticəsində sovxoz və kolxozların anbarına çevrilmiş, eləcə də digər qurumların istifadəsinə verilən məscidlərdə də əsaslı təmir işlərinə başlanılmışdı. Dilimizə, dinimizə təcavüz edən imperiya rəhbərləri bu dəfə də Heydər Əliyev qətiyyəti qarşısında baş verənləri sükutla seyr etmək məcburiyyətində qalmışdılar. Azərbaycanda bütün dinlərə məxsus müqəddəs yerlər qorunub saxlanıldığı və insanların sərbəst şəkildə həmin yerlərdə ibadət etmələrinə heç

bir məhdudiyyətin qoyulmadığı halda, məscidlərə qarşı qeyri-insani hərəkətlər törədilirdi. Bu, imperiyanın dinlər arasında ən müqəddəs hesab edilən İslam dininə qarşı apardığı və heç bir etik normalara sığmayan çirkin siyasəti idi. Amma Azərbaycanda müqəddəs İslam dininin qorunması naminə görülən işlərə mane olmaq üçün imperiyanın həyata keçirdiyi qeyri-insani siyasət yetərli deyildi. Əslində bu siyasətə mane olan bir qüvvə vardı ki, bu da Heydər Əliyev qətiyyəti idi.

Ümummilli liderimizin gərgin əməyi, böyük zəhmətləri və uzaqgörən siyasəti sayəsində mədəniyyətimizə, dilimizə, dinimizə, ədəbiyyatımıza edilən təcavüzlər aradan qaldırıldı. "Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur" - deyən Heydər Əliyev dilimizin, dinimizin saflığının qorunmasında, inkişaf etdirilməsində, dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərmişdir. O, respublikamıza rəhbərliyi dövründə hər şeydən öncə, milli-mənəvi məsələlərə xüsusi önəm verirdi. Onun, "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir" kimi müdrik kəlamları devizə, şüara çevrilmişdir.

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə görülən ən böyük işlərdən biri də Azərbaycan dilinin qorunması idi. Acı bir həqiqət ondan ibarət idi ki, respublikamızda Azərbaycan dili ikinci dil kimi qəbul olunmuşdu. Bununla heç cür barışa bilməyən Heydər Əliyev Azərbaycan dilinin rəsmi dövlət dili kimi qəbul edilməsinə nail oldu və bundan sonra rus dili ikinci dil kimi təsdiqləndi. Lakin o vaxta qədər rus dili birinci, yəni rəsmi dövlət dili kimi qəbul edilmişdi.

Danılmaz faktdır ki, o dövrdə Azərbaycanı dünyada daha çox onun rəhbərinə - Heydər Əliyevə görə tanıyırdılar. Məhz onun gərgin əməyi, məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın keçmişi və o dövr üçün olan həqiqətləri dünyaya yayılmışdı. Vaxtilə onun yaratdığı şəraitdən istifadə edərək Azərbaycandan uzaqda təhsil alan 15 min nəfərdən çox azərbaycanlının arasında bu gün respublikamızın dövlət quruculuğunda fəal iştirak edərək xalqımızın yüksəlişinə,



hərtərəfli inkişafına öz töhfəsini verənlərin - Heydər Əliyev məktəbinin yetirmələrinin sayı kifayət qədərdir. Bu müsbət kəmiyyət göstəricisi keyfiyyət baxımından da olduqca yüksəkdir. İttifaqın müxtəlif ali məktəblərində təhsil alan, aspirantura və doktoranturalarda oxuyan insanlar o illərdə cəmiyyətdə Heydər Əliyev şəxsiyyətinə müstəsna dərəcədə hörmət bəslədiyini daha aydın hiss etmiş, onun siyasi uzaqgörənliyinə yüksək qiymət verildiyinə şahid olmuşlar. Sovet dövründə Heydər Əliyev şəxsiyyəti daim cəmiyyətin diqqət mərkəzində olmuş, onun məqsədyönlü fəaliyyəti maraqla izlənmişdir. Əlbəttə, bu da təsadüfi deyildi. Çünki Heydər Əliyev çox qətiyyətli addımlar atır, Azərbaycanın inkişafı, milli maraqların təmin olunması üçün lazımi işlər görür, bütün mümkün variantlardan səmərəli şəkildə istifadə edirdi. Onun düşünülmüş siyasəti bəzən həyata keçirilməsi xəyal kimi görünən işlərin tez bir zamanda reallığa çevrilməsinə zəmin yaradırdı. Uzun illər həlli mümkünsüz görünən məsələlərin həll edilməsi sözün yaxşı mənasında, heyranlıqla qarşılanırdı. Daha dəqiq desək, bu cür işlərdən xalqımız və onun dostları sevinir, düşmənlərimiz məyus olurdu.

Ötən əsrin 70-ci illərinə qədər Azərbaycanın müttəfiq respublikalar arasında sonuncu yerdə olması barədə məlumat vermişdik. Lakin Heydər Əliyevin rəhbərliyi ilə və bilavasitə onun gördüyü işlər sayəsində Azərbaycan qısa zaman ərzində ümumi inkişaf səviyyəsinə görə İttifaq respublikaları arasında 4-cü, bəzi sahələr üzrə isə 1-ci yerə yüksəldi. Bu, olduqca böyük uğur idi.

70-ci illərdən başlayaraq SSRİ-nin ən nüfuzlu ali məktəblərinə əsasən nadir, müasir peşə və ixtisaslar üzrə təhsil almağa göndərilən tələbə-gənclər ordusu Heydər Əliyevə güvənir, onun yaratdığı bu cür şəraitdən istifadə edərək Azərbaycanın xoşbəxt gələcəyi naminə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün daha əzmlə çalışırdılar.

Milli iftixarımız, qürurumuz Heydər Əliyevin Azərbaycana böyük siyasi uzaqgörənliklə rəhbərlik etdiyi 70-80-ci illərdə respublikamızda fəaliyyət göstərən ali təhsil ocaqlarının siyahısına 5-si də əlavə olundu. 5 yeni ali məktəbin istifadəyə verilməsi həm kadr hazırlığında, həm də Azərbaycanın

hərtərəfli inkişafında böyük rol oynadı. Tələbələrin sayı 70 min nəfərdən 100 min nəfərə çatdırıldı. Bu proses qısa zaman ərzində baş verdi.

Gənclərin ali məktəblərə qəbulu zamanı vaxtilə mövcud olan süni maneələrin qarşısı alındı və bu kimi xoşagəlməz halların ənənəvi xarakter almasına yol verilmədi. Rüşvət və bu kimi digər mənfi halların mövcud olması əksər vaxt istedadlı gənclərin təhsildən kənarda qalmaları ilə nəticələnirdi. Müxtəlif yollarla ali məktəblərdə təhsil alan savadsız kadrların respublikamızın, xalqımızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında mühüm əhəmiyyət kəsb edən vəzifələrdə təmsil olunmaları şübhəsiz ki, Azərbaycanın gələcəyi üçün böyük təhlükə idi. Amalı, əqidəsi, məqsədi Azərbaycana şərəflə, vicdanla, sədaqətlə xidmət etmək olan, xalqımızın öz müqəddəratını həll etmək haqqına sahib çıxması üçün əzmkar mübarizə aparan ümummilli liderimiz təhsil sahəsində baş verən bu cür hallara göz yuma bilməzdi. Təhsili millətin gələcəyi hesab edən Heydər Əliyev istedadlı, bilikli gənclər üçün ali məktəblərin qapılarının açıq olduğunu bəyan etmiş və fikrini bu sahədə atdığı əməli addımlarla bir daha təsdiqləmişdir. Bu siyasət əhalinin kasıb təbəqəsini daha çox sevindirirdi. Bir sözlə, savadlı olan hər bir gənc tələbə adı qazanmaqda cüzi olsa belə maneə ilə üzləşmirdi və onlara yüksək vətənpərvərlik hissləri aşılanırdı. Azərbaycanda təhsillə yanaşı, gənclərin həyat şəraitinin yaxşılaşmasına, onların heç bir problemlə üzləşmədən vaxtlarını yalnız elmə, təhsilə sərf etmələri üçün şərait yaradılmasına xüsusi diqqət yetirilirdi.

Sovet ordusunda xidmət edən gənclərimizə bəslənilən münasibətlə barışmayan Heydər Əliyev üzləşdiyi çətinliklərə, maneələrə baxmayaraq Bakıda hərbi kadrları hazırlayan Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail oldu. Bu məktəbin açılmasına mane olmaq istəyənlər kifayət qədər idi və onlar SSRİ-də müxtəlif məsul vəzifələrdə çalışanlar idi. Lakin onlar Heydər Əliyevin qətiyyəti qarşısında tab gətirə bilməyərək inadkarlıqlarından əl çəkmək məcburiyyətində qaldılar.

O zaman Moskvadan bu hərbi məktəbin fəaliyyətinə qarşı xüsusi məqsəd daşıyan nəzarət vardı. Cəmşid Naxçıvanski adına hərbi məktəbdə tez-tez əsassız yoxlamaların aparılması





təzyiq vasitəsi kimi qiymətləndirilirdi. Lakin hərbi məktəbdə dəfələrlə bu cür yoxlamalar aparılsa da, təhsil ocağının fəaliyyətinə xitam verilməsi üçün heç bir fakt tapmaq mümkün olmurdu. Əksinə, mövcud reallıq, şəffaflıq hərbi məktəbin nümunəvi fəaliyyətini təsdiq edirdi. Heydər Əliyev uzun illər bu hərbi məktəbin fəaliyyətinə qarşı mərkəzdən yönələn cəhdlərin qarşısını alaraq nümunəvi bir təhsil ocağına

çevrilməsinə çalışmış və buna nail olmuşdur. Həmin dövrdə bu məktəbin yaradılmasının hansı səbəbdən baş verdiyini bilənlərin sayı çox deyildi. Bunun mahiyyətini Azərbaycan müstəqillik əldə etdikdən sonra daha dərindən dərk etdik.

O illərdə Sovet dövlətinin 170-dən artıq ali təhsil müəssisəsində 15 min nəfərdən çox azərbaycanlı gənc respublikamızın iqtisadiyyatında, xalq təsərrüfatında, elm, təhsil və mədəniyyətində ehtiyac duyulan 80-dən artıq sahə üzrə ixtisaslara yiyələnmişdilər. Sonradan o da məlum oldu ki, ümumilli liderimiz Heydər Əliyev azərbaycanlı gəncləri yüksək biliklərə yiyələnmək, ali təhsil almaq üçün göndərərkən perspektivləri Azərbaycanın müsətqilliyinə hesablamış, xalqımızın xoşbəxt gələcəyi naminə milli kadrlar hazırlamışdır.

Azərbaycan xalqı tarixi nailiyyət əldə etdikdən - müstəqillik qazandıqdan sonra Heydər Əliyev o dövrdə gördüyü işləri etiraf edərək demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır, bu işə biz hələ 1970-ci ildən başlamışdıq. Mən bun gün çox böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur". Dahi şəxsiyyətin bu etirafından da görünür ki, o, Azərbaycanın müstəqilliyi, xalqımızın azadlığı, istiqlaliyyəti naminə böyük işlər görmüş və ən vacib məsələlərin əksəriyyətini həmin vaxt həll etmişdir.

Bu gün müstəqil Azərbaycan Respublikasının xarici diplomatiyasına, Milli Orduya, MTN-ə, DİN-ə və s. rəhbərlik edən, eləcə də digər sahələrdə çalışan aparıcı kadrların əksəriyyəti məhz Heydər Əliyevin hərtərəfli dəstəyi, diqqət və qayğısı ilə formalaşan, peşəkar olan insanlardır.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev Sovet dövründə azərbaycanlıların assimilyasiyasına mane olduğu kimi. Azərbaycanın türk-müsəlman əhalisinə ögey münasibət bəslənilməsinin, onlara ikinci növ millət kimi yanaşmanın da qarşısını aldı. O, sovet imperiyası dövründə Azərbaycan xalqını özünəməxsus siyasətlə qoruyurdu. Xalqın mədəniyyətinin qorunması, inkişaf etdirilməsi, milli-mənəvi dəyərlərimizin təbliğ olunması üçün mütəmadi olaraq tədbirlər keçirilir, azərbaycanlıların maraqlarına uyğun qərarlar qəbul edilirdi.



1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dilinin rəsmi dövlət dili kimi təsdiqini tapması Heydər Əliyevin xalq qarşısındakı tarixi xidmətlərindən biri idi. Mədəni, tarixi abidələrin bərpası, uyğun eksponatlarla zənginləşdirilməsi, azərbaycanlıların zəngin mədəniyyətə malik olduqlarının inkaredilməz faktlarla təsdiqlənməsi və bu kimi yüzlərlə, minlərlə işlərin görülməsi xalqımızın həyatanda, keçmişimizin gələcəyə çatdırılmasında əvəzsiz rol oynadı. O dövrdə bu cür addımlar atmağın nə qədər çətin olduğunu həmin vaxt yaşayan insanlar daha yaxşı bilirlər. Ümumiyyətlə, SSRİ-nin mövcud olduğu dövrdə bu imperiyanı yalnız özünü qorumaq düşündürürdü. Bunun üçün imperiya rəhbərliyi insanlıqla bir araya sığmayan hər cür hərəkətlərə yol verməyə hazır idi və dəfələrlə bu cür halların şahidi olmuşuq. Amma Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə imperiyanın başında duranlar Azərbaycana və azərbaycanlılara münasibətlərini dəyişmək məcburiyyətində qalmışdılar. Ümumiyyətlə, Heydər Əliyev onlara anlatdı ki, insan müqəddəs Tanrının yaratdığı canlılar arasında ən alisidir. Buna görə də insan faktorunun hər bir məsələnin həllində əsas götürülməsini o, bir daha diqqətə çatdırdı, bunun önəmli olduğunu dəyərli faktlarla sübut etdi. Heydər Əliyev milliyyətindən, dinindən, irqindən asılı olmayaraq hər bir insana yanaşmada ilk növbədə insani hisslərin unudulmamasını zəruri hesab edirdi. Ona görə də bütün dünya xalqları, millətləri, etnik qruplar, dini azlıqlar Heydər Əliyevi sevir, onun şəxsiyyətinə böyük hörmət bəsləyirdilər və bu gün də onun əbədi, əziz xatirəsini ehtiramla yad edirlər. Azərbaycanın fəxri, Türk dünyasının böyük oğlu Heydər Əliyevi həm də bəşəriyyətin xilası naminə ən dəyərli töhfələr verən şəxsiyyət kimi tanıyır, qəbul edirlər. Dünyanın insanlığa xüsusi qiymət verdiyi hər bir ölkəsində Heydər Əliyevə, onun şəxsiyyətinə daim hörmət bəslənilir, bu böyük şəxsiyyətin mənalı ömür yolunun hər addımı nümunə kimi göstərilir.

Xalqımızın milli maraqlarının qorunması naminə başladığı mübarizədə qalib gələn ümummilli liderimiz respublikamızın sürətli inkişafına da nail oldu. Azərbaycanın hər bir bölgəsinə tez-tez səfər edən Heydər Əliyev mövcud sahələrdə olan çatışmazlıqların aradan qaldırılması üçün təxirəsalınmaz

tədbirlərin görülməsinə, zərurət yarandığı halda, yeni sahələrin təsis olunmasına dair qərarlar qəbul edirdi. Əsasən zəhmətkeşlərlə görüşən ulu öndərimiz hər bir insanın ən cüzi probleminə belə həssaslıqla yanaşır, mövcud çətinliklərin aradan qaldırılması üçün lazımi addımlar atırdı.

Respublika vətəndaşlarının taleyi Heydər Əliyev üçün hər şeydən önəmli və qiymətli idi. O, hər şeydən öncə, insanların hüquq və azadlıqlarının qorunması, onların təhlükəsizliyinin təmin edilməsi, hər kəsin həyat şəraitinin yaxşılaşdırılması məsələsinə xüsusi diqqət yetirirdi. O dövrdə respublikada demək olar ki, işsizlik problemi tamamilə həll edilmişdi. İşçilərin maddi-sosial rifahının yüksəldilməsi üçün zəruri addımlar atılırdı. Belə ki, aylıq əmək haqlarının artırılması və peşə fəaliyyətindən asılı olaraq işçilərə müəyyən güzəştlərin edilməsi ənənə halına çevrilmişdi. Azərbaycanda əmək haqları İttifaq miqyasında bütün respublikaları üstələmişdi. Respublika vətəndaşlarının asudə vaxtlarının səmərəli təşkili, normal istirahət etmələri, sağlamlıqlarının qorunması üçün sanatoriyalara göndərilmələri sahəsində ciddi işlər görülmüşdü və bu kimi məsələlərdə heç bir problem yox idi.

Respublikamızda görülən işlər Azərbaycanın müttəfiqlərindən iqtisadi asılılığın müəyyən qədər aradan qaldırılmasına səbəb olmuşdur. Bildiyimiz kimi, sovet ideologiyası SSRİ-yə daxil olan 15 respublikanın bir-birindən iqtisadi asılılığına şərait yaradırdı. Bu da səbəbsiz deyildi. Belə zəncirvari asılılıq bu respublikaların nə zamansa müstəqillik qazanma ehtimalını heçə endirir, onların tək yaşaya bilməməsini şərtləndirirdi. Qanla qurulmuş imperiyaya rəhbərlik edənlər bilirdilər ki, nə zamansa İttifaqa daxil olan respublikalar müstəqillik barədə düşünə bilərlər. Ona görə də bunun qarşısının alınması üçün respublikaları bir-birindən asılı vəziyyətə salırdılar. Baxmayaraq ki, bu asılılıq dövlətə çox baha başa gəlirdi. Məsələn, bir respublikada olan xammalı istehsal etmək üçün lazım olan müəssisə - zavod, fabrik və s. başqa bir respublikada tikilirdi. Bununla da həmin respublikalar bir-birindən asılı vəziyyətə düşürdülər. Bu cür asılılıq olduqca xaotik bir formada - zəncirvari şəkildə bütün respublikaları əhatə edirdi. Halbuki xammalın olduğu yerdə həmin məhsulu istehsal edəcək uyğun müəssisə yaratmaq daha səmərəli idi.



SSRİ dövlətinin siyasi strategiyasını hazırlayanları isə daha çox respublikaları bir-birindən asılı vəziyyətə salaraq onları müstəmləkə kimi saxlamaq düşündürürdü.

Heydər Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın iqtisadi yüksəlişinə səbəb olmuşdur. Artıq Azərbaycanda xeyli sayda yeni müəssisələr - istehsal sahələri yaradılmışdı. Xüsusilə neft-kimya sahəsində uğurlu addımlar atılmışdır. Ümumiyyətlə, əksər sahələrə uyğun fabriklər, zavodlar tikilmiş, o dövr üçün ən yeni hesab olunan avadanlıqlarla təchiz edilərək xalqın ixtiyarına verilmişdir.

Bu görülən işlər sayəsində Azərbaycanın başqa respublikalardan iqtisadi asılılığınının azalması müşahidə olunurdu. Hətta, digər respublikalar Azərbaycandan daha çox asılı vəziyyətdə idi. Bəzi sahələrdə isə Rusiyanın özü Azərbaycandan asılı vəziyyətə düşmüşdü. SSRİ üzrə elə müəssisə vardı ki, o yalnız Azərbaycanda idi. Azərbaycanın bütün bu nailiyyətləri nəticəsində respublikamız addım-addım müstəqilliyə, suverenliyə doğru irəliləməkdə idi. Bunu isə Heydər Əliyevdən başqa heç kim bilmirdi. Heç kəs ağlına belə gətirə bilməzdi ki, SSRİ kimi bir imperiya nə zamansa süquta uğrayacaq, bu dövlətin tərkibindəki respublikalar suverenlik əldə edəcək. Təbii ki, bunu bilmək üçün Heydər Əliyev kimi siyasətçi olmaq lazım idi. Bu isə mümkün deyildi. Çünki Heydər Əliyev kimi şəxsiyyətlər əsrdə bir dəfə yetişir. Amma Heydər Əliyev dünya mövcud olduğu gündən indiyədək ötən zaman ərzində heç kimə bənzəməyən nadir tarixi şəxsiyyətdir. Ona məxsus olan xüsusiyyətlər Tanrı tərəfindən verilmişdir. Hansısa bir sahədə təkmilləşmək, dünyada birinci olmaq mümkündür. Lakin hər bir sahədə birinci olmaq Heydər Əliyevdən başqa hələ ki, heç kimə nəsib olmamışdır. Bizim üçün bundan qürurlu, sevindirici nə ola bilər?!

Ulu öndərimizin bu əvəzsiz xidmətləri - respublikamızın sürətli, hərtərəfli inkişafı, xalqın milli maraqlarının qorunması, maddi-sosial rifahının yüksəldilməsi üçün gördüyü əməli işlər hər bir azərbaycanlını, Azərbaycanın bütün sakinlərini sevindirirdi. Azərbaycana şərəflə xidmət göstərmək istəyən hər bir insan üçün yüksək səviyyədə şərait yaradılmışdı. Milli kadrlara geniş yer verilməsi xalqımızın maraqlarının arzulanan səviyyədə təmin olunmasına ən etibarlı zəmanət idi.

Azərbaycanın bu saysız-hesabsız uğurlarına sevinənlərdən biri də xalqımızın sevimli övladı, dünya elmində öz dəsti-xətti, yolu ilə tanınan, adı tariximizin ən şərəfli səhifəsinə böyük hərflərlə yazılan Zərifə xanım Əliyeva idi. Əvvəldə də qeyd etmişdik ki, XX əsrin 70-ci illərinə qədər Azərbaycandakı vəziyyət, xalqımıza bəslənilən münasibət Zərifə xanımı narahat edən ən ciddi məsələlər arasında ön sıradaydı. Ona görə də vətənimizin başı üzərindən qara buludların çəkilməsi, respublikamızın İttifaq miqyasında liderliyə yüksəlməsi, dünyada tanınması ürəyi Azərbaycanla döyünən Zərifə Əliyevanı qəlbən sevindirirdi. O, vaxtilə xalqa daha yüksək xidmətlərin göstərilməsinə ehtiyac olduğunu, bunun üçün lazımi şəraitin yaradılmasını vacib hesab edirdi. Ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, tibb elmində, səhiyyə sahəsində də inqilab baş vermişdir.

Doğrudur, Azərbaycanda tibb elminin qədim tarixi və zəngin ənənələri var. Hələ neçə əsr bundan əvvəl azərbaycanlılar tərəfindən dünya tibb elminə yeniliklər gətirilmişdir. Lakin etiraf etməliyik ki, bütün sahələr kimi, səhiyyənin də daha sürətli inkişafı ötən əsrin 70-ci illərindən sonraya təsadüf edir. Əslində buna təsadüf yox, görülən işlərin nəticəsi, çəkilən zəhmətlərin bəhrəsi, düşünülmüş siyasətin uğuru kimi qiymət vermək daha düzgün olardı.

Səhiyyənin inkişafına göstərilən diqqət və qayğı insanların sağlamlığının qorunması yolunda atılan ən dəyərli addımlardan idi. O dövrdə respublikamızda demək olar ki, əksər xəstəliklərin müayinə və müalicəsi üçün uyğun xəstəxanalar, tibb mərkəzləri, klinikalar və s. tikilib istifadəyə verilirdi. Bütün bunlar səhiyyə sahəsinin hər bir bölməsində uğurlu nəticələr verməkdə idi.

Yaradılan yüksək şəraitdən lazımi səviyyədə istifadə edən Zərifə Əliyevanın rəhbərliyi ilə oftalmologiya elmində də yeniliklər baş verməkdəydi. Professor Zərifə Əliyeva təkcə İttifaq miqyasında deyil, bütün dünyada tanınmaqda idi və onun peşəkar həkim, yüksək insani keyfiyyətlərə malik bir şəxs kimi fəaliyyəti Azərbaycanın adını daha da yüksəklərə qaldırırdı. Onun elmi məqalələri, araşdırmaları, monoqrafiyaları, müəllifi olduğu kitablar bir çox ölkələrin tibb sahəsində geniş istifadə



edilirdi.

İftixar dolu bir məqam ondan ibarət idi ki, həm ulu öndərimiz Heydər Əliyev, həm də onun ömür-gün yoldaşı Zərifə Əliyeva xalqa sədaqətlə xidmət göstərirdilər. Onların hər ikisini ailə məsuliyyəti ilə yanaşı, həm də vətənə, xalqa vicdanla, şərəflə xidmət etmək amalı, istəyi birləşdirirdi. Bu birliyin fonunda xalqımız daha da həmrəy olur, müdrikləşir, kamilləşir və gələcəyə nikbin baxışlarla nəzər salırdı. Onlardan nümunə götürən hər kəs həm həyatda öz yolunu, mövqeyini müəyyənləşdirir, həm də daha çox Azərbaycana xidmət etməyi düşünürdü.

Enişli-yoxuşlu ömür yolunda çox çətinliklərlə üzləşən, buna baxmayaraq mövqeyindən çəkilməyən Zərifə xanım sözün əsl mənasında, bir nümunə idi. İstər onun keçdiyi yol, istər tibb elmində etdiyi yeniliklər, istərsə də bir ana kimi üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməsi Zərifə Əliyevanın nümunə kimi göstərilməsinə səbəb olan amillərdən idi. Qeyd edilənlərin hər birinin kuliminasiya nöqtəsində vətənə, xalqa xidmət məsələsi dururdu.

Zərifə Əliyeva bir ana kimi övladları qarşısında böyük məsuliyyət daşıdığını yaxşı bilirdi. Onlara yüksək əxlaq, tərbiyə vermək, qayğısız böyümələrini təmin etmək Zərifə xanımı hər zaman düşündürürdü. Zərifə xanım övladlarının gələcəkdə Azərbaycana layiqli olmaları üçün əlindən gələni edirdi. O, düşünürdü ki, hər bir ana övladlarını vətən üçün böyütməli, onları vətənpərvərlik ruhunda tərbiyə etməli, yüksək təhsil almasına çalışmalıdır. Zərifə xanım işinin çoxluğuna baxmayaraq övladları ilə bağlı məsələləri heç vaxt arxa plana keçirməmişdir. Biz onun hər bir məsələdə tutduğu yolun bəhrəsini bu gün görürük.

Hər bir ailənin möhkəm təməllər üzərində qurulmasında kişi ilə qadının üzərinə eyni yük düşsə də, əsas məsuliyyəti qadın daşıyır. Doğrudan da ailə olduqca incə və dəyərli məfhumdur. Ailədə qadın zərifliyi, qayğıkeşliyi həmişə gərəkli və üstün olur. Milli xüsusiyyətlərin, əxlaqi dəyərlərin hər bir ailədə qorunmasında qadın daha böyük qüvvə hesab edilir.

Heydər Əliyevlə Zərifə Əliyevanın qurduğu ailənin Azərbaycanın dövlətçilik həyatında böyük və milli-mənəvi dəyərlər nöqteyi-nəzərdən yüksək rol oynadığını deyə bilərik.



Hər hansı insan şəxsiyyət kimi formalaşıb cəmiyyət içində özünəməxsus yer tutduqda ilk növbədə onun ailəsinə, tərbiyə etdiyi övladlara qiymət verilir. Təbii ki, bütün uğurların təməli ailədə qoyulur və bu uğurlar getdikcə cəmiyyəti əhatə edir. Əlbəttə, söhbət cəmiyyət üçün maraqlı olan, xalqın həyatında müəyyən rol oynayan şəxslərin ailələrindən gedir. Əliyevlər ailəsinə olan rəğbət, ümumxalq sevgisi xalqın ulu öndərə bəslədiyi ümid və inamı daha da artırırdı.

Necə ki, Zərifə Əliyeva Heydər Əliyevdən, ümummilli liderimiz də sədaqətli, vəfalı həyat yoldaşının həyatda tutduğu mövqedən razı idi. Bütün ömrünü Azərbaycan xalqının azadlığına, istiqlaliyyətinə, yaxşı yaşamasına həsr edən Heydər Əliyev həyat yoldaşının vətən qarşısındakı xidmətlərindən qürur hissi keçirirdi. "Mən həyatda 3 şeyə arxalanmışam: "Yaradanıma, zəhmətimə və xalqıma" deyən ümummilli liderimiz bu xalqın ən layiqli övladlarından biri kimi Zərifə xanıma da inanır, onun Azərbaycan üçün daha böyük işlər görəcəyinə, vətəninin başını hər zaman uca edəcəyinə ümid bəsləyirdi. Heydər Əliyev inanırdı ki, onun övladları nə zamansa Azərbaycanın həyatında müstəsna rol oynaya biləcəklər. Sözsüz ki, burada hansısa vəzifə tutmaqdan yox, əsl vətəndaş, xalqa layiqli övlad olmaq məsuliyyətindən söhbət gedir.

Ümummilli liderimiz üçün Azərbaycan xalqından və onun



maraqlarından üstün heç nə yox idi. Onun üçün insan faktoru hər şeydən önəmli idi. O, çalışırdı ki, övladları hər zaman fədakar, lazımlı və xalq üçün arzulanan olsunlar və bunu bütün insanlara arzulayırdı. "Hamı bu vətən üçün çalışmalıdır" deyən ulu öndərimizin bu dəyərli sözlərində böyük məna və hikmət var. O, həmçinin qeyd edirdi ki, harada yaşamasından, hansı vəzifəni icra etməsindən asılı olmayaraq hər bir azərbaycanlı Azərbaycanı doğma vətəni hesab etməli və onun xoşbəxt gələcəyi naminə birləşməlidir. Ulu öndərimizin hər sözündə, kəlamında da vətənə məhəbbət, xalqa xidmət çağırışı vardı. Bu çağırış təkcə Azərbaycanı deyil, həmçinin SSRİ-nin ayrı-ayrı yerlərində, hətta dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları da əhatə edirdi.

Heydər Əliyevin 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi Azərbaycanın tarixində mühüm hadisə oldu. O, bir çox məsələlərdə birinci idi. Hələ Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində işləyərkən yeganə azərbaycanlı (müsəlman) idi ki, general rütbəsinə yüksəlmişdi. Ulu öndərimiz həm də SSRİ rəhbərlərindən biri olmaqla bu ali vəzifəyə yüksələn ilk azərbaycanlı idi. Xalqımızın böyük oğlu, fenomen şəxsiyyət Heydər Əliyev Moskvada işlədiyi dövrdə Azərbaycanın qarşısında daha geniş imkanların açılmasına nail oldu. Doğrudur, o, xalqları, millətləri, respublikaları, ümumiyyətlə, insanları bir-birindən ayırmamış, heç bir xüsusiyyətinə görə insanlar arasında fərq qoymamışdır. Məhz bu səbəbdən idi ki, ulu öndərin Moskvadakı fəaliyyətindən bütün respublikalar və onların vətəndaşları lazımi səviyyədə yararlanırdılar.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi vaxt demək olar ki, xalqımızın gələcəyi naminə bütün vacib işləri görmüşdür. Amma bəzi məsələlər vardı ki, onların həll edilməsi olduqca vacib idi və belə olan halda, daha çox uğurlar qazanmaq mümkün idi. Uzaqgörən siyasətçi Azərbaycanın bugünü və gələcəyi naminə böyük işlər gördü. O, SSRİ rəhbərlərindən biri kimi istənilən qərarın qəbul edilməsində söz sahibi idi və onun xeyir-dua verdiyi hər bir qərar qeyd-şərtsiz təsdiqlənirdi. Heydər Əliyev rəhbərlik bacarığına, qətiyyətinə və ən əsası, humanistliyinə görə də başqalarına, xüsusilə ətrafındakılara nümunə idi.

Heydər Əliyev Sovet dövlətinin hər bir vətəndaşının rəğbətini qazanmışdı. O, yüksək əxlaqi-insani dəyərlərə malik olan hər kəsin gözündə ən ali zirvəyə yüksəlmişdi. Heydər Əliyev ucaldıqca xalqını, millətini də yüksəklərə, zirvələrə qaldırırdı.

Ümummilli liderimizin SSRİ Nazirlər Soveti sədrinin I müavini kimi fəaliyyəti Sovetlər Birliyinin həm daxili, həm də xarici siyasətində mühüm rol oynayırdı. Yaşlı və orta nəslin nümayəndələrinə yaxşı məlumdur ki, SSRİ rəhbərliyinin uzun illər yürütdüyü siyasət başqa dövlətlər tərəfindən heç də birmənalı qarşılanmırdı. Çünki bu dövlət başqa ölkələrə münasibətdə heç də səmimi deyildi və ancaq dünyada hegemonluq etmək üçün ağılsız siyasət yürüdürdü.

Heydər Əliyev bilirdi ki, artıq dövr, zaman dəyişib və heç bir dövlətlə zor, güc dilində danışmaq düzgün deyil. O, deyirdi ki, kimdənsə gözlədiyin münasibət ona bəslədiyin münasibətdən aslıdır. Eynilə dövlət siyasəti də belə idi. Hansısa dövlətə qarşı sərt davranmaqla həmin ölkədən səmimi münasibət gözləmək ağılsızlıq olardı. Bu, həm də nüfuz məsələsi idi. Təbii ki, zor və güc hesabına nə hörmət, nə də nüfuz qazanmaq mümkün deyildi. Heydər Əliyev düşünülmüş siyasət yürütməklə SSRİ-yə beynəlxalq aləmdə böyük nüfuz qazandırdı. Ona görə yox ki, o, bu dövlətin uzunömürlü olmasını istəyirdi. Sadəcə ona görə ki, Heydər Əliyev istəmirdi ki, SSRİ rəhbərliyinin səhv siyasəti səbəbindən bu dövlətdə yaşayan xalqlara, millətlərə beynəlxalq aləmdə qeyri-normal münasibət bəslənilsin. Çünki o, bilirdi ki, İttifaqa daxil olan respublikalar nə zamansa suverenlik qazanacaqlar. Məhz bu səbəbdən də xalqlar öz müqəddəratını həll edənə qədər onların dünyadan təcrid olunmasına yol vermək olmazdı. Heydər Əliyev bu məsələləri incəliyinə qədər bilirdi və fəaliyyətinin əsas hissəsini xalqların xoşbəxt gələcəyi naminə başladığı mübarizəyə yönəltmişdi.

Dünyanın siyasi arenasında xüsusi yeri, çəkisi olan Heydər Əliyevin bu xidmətləri Azərbaycan naminə böyük işlər görən hər kəsi qürurlandırır, sevindirirdi.

Böyük iftixar, qürur hissi keçirən şəxslərdən biri də ömrünü Azərbaycana həsr edən Zərifə xanım Əliyeva idi. Azərbaycanın gündən-günə çiçəklənməsi, dünya miqyasında tanınması Zərifə





xanımı bir ana və ziyalı kimi sevindirirdi. Bu işdə onun da böyük əməyi vardı. Onun da çəkdiyi zəhmətlər bəhrəsini verməkdə idi. İndi dünya Azərbaycanı həm də akademik Zərifə Əliyevanın əməli nəticələr verən zəhmətinə, xidmətlərinə görə tanıyırdı.

Zərifə xanım həyatda bir çox arzularına çatmışdı. Onun ən böyük arzusu isə Azərbaycanın müstəqillik qazanması, xalqımızın azad yaşamaq haqqına sahib çıxması idi. Nadir tarixi şəxsiyyət Heydər Əliyevin apardığı haqq-ədalət mübarizəsinin məntiqi nəticəsi olaraq Azərbaycan ən böyük tarixi nailiyyət - müstəqillik qazandı. Təəssüflər olsun ki, Azərbaycanın müstəqillik qazandığı günü görmək, bunun sevincli anlarını yaşamaq Zərifə xanıma qismət olmadı.

